

100 ilin qəzeti

# ŞƏRQ QAPISI

Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

Sayı: 3 (24.438)

25 yanvar 2025-ci il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi


## Prezident İlham Əliyev 20 Yanvar şəhidlərinin xatirəsini yad edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin əziz xatirəsini yad edib.

Dövlətimizin başçısı “Əbədi məşəl” abidəsinin önünə əklil qoydu.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.



Qanlı 20 Yanvar faciəsindən 35 il keçir. Düz 35 il əvvəl doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin qanlı gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur, öz vətəndaşlarına divan tutan sovet imperiyasının ovaxtkı rəhbərlərinə və onların Azərbaycandakı əlaltılarına dərin nifrətini bildirir.

Keçmiş SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli, ermənipərəst siyasətinə, əzəli torpaqlarımıza iddia edən təcavüzkar Ermənistanın açıq-aşkar dəstəklənməsinə və respublikanın ozamankı rəhbərliyinin xəyanətkar mövqeyinə etiraz olaraq ayağa qalxmış geniş xalq kütlələrinə qarşı sovet ordusunun iri hərbi birləşmələrinin yeridilməsi Azərbaycanda, xüsusilə Bakıda misli görünməmiş faciə, günahsız insanların həlak olması ilə nəticələndi. Sanki bunları görməyən Azərbaycanın ovaxtkı səriştəsiz rəhbərlərinin yenə də xalqla bir olmağa cəsarəti çatmadı.

Həmin vaxt Moskvada yaşayan Ümummilli Liderimiz Heydər Əliyev həyatını təhlükə altında qoyaraq faciənin ertəsi günü Azərbaycanın Daimi Nümayəndəliyinə gəldi, Qanlı Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdi, xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırdı.

Ümummilli Lider Heydər Əliyev Azərbaycanın rəhbərliyinə qayıtdıqdan sonra – 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı. 20 Yanvar Ümumxalq Hüzn Günü elan edildi.

Bu gün Azərbaycan xalqı 20 Yanvar faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edir. Vətənimizin azadlığı uğrunda mübarizədə canlarından keçən şəhidlərin xatirəsi daim əziz tutulduğu kimi, onların ailə üzvləri, doğmaları da hər zaman dövlət qayğısı ilə əhatə olunub. 20 Yanvar hadisələrində sağlamlığını itirən əlillərin də sosial müdafiəsi, pensiya təminatı hər zaman Azərbaycan Prezidenti İlham Əliyevin diqqətindədir. 20 Yanvar şəhidlərinin ailə üzvlərinin və əlillərin sosial müdafiəsinin təmin olunması istiqamətində mütəmadi tədbirlər həyata keçirilir. Şəhid ailələrinin pensiya təminatı, mənzil şəraitinin yaxşılaşdırılması, yaşayış səviyyəsinin yüksəldilməsi ilə bağlı mükəmməl qanunvericilik bazası yaradılıb.

Əminliklə deyə bilərik ki, Ulu Öndər Heydər Əliyevin, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş bütün şəhidlərin ruhları bu gün şaddır. Çünki 2020-ci ildə Azərbaycan Ordusu xalqımızın 30 illik həsrətinə son qoydu, torpaqlarımızı erməni işğalından azad etdi. 2023-cü ilin sentyabrında həyata keçirilən uğurlu antiterror tədbirləri nəticəsində isə suverenliyimiz tam bərpa olundu. İndi bütün ərazilərimizdə Azərbaycanın üçrəngli Bayrağı dalğalanır. İşğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı quruculuq işləri sürətlə davam edir, Böyük Qayıdış Proqramı uğurla icra olunur. Bunun nəticəsidir ki, işğaldan azad olunmuş ərazilərdə hazırda, ümumilikdə, 30 mindən çox insan yaşayır.

Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunması bütün şəhidlərimizin, o cümlədən 20 Yanvar faciəsi qurbanlarının qanının yerdə qalmadığının sübutudur. Buna görə də xalqımız 20 Yanvar faciəsinin 35-ci ildönümünü də xüsusi qürur hissi ilə qeyd edir.

# Azərbaycanın beynəlxalq iqtisadi münasibətlərdəki fəal rolunun ifadəsi – Davos İqtisadi Forumu



***Dünya geosiyasi mənzərəsinə, beynəlxalq əlaqələrə ciddi təsir göstərən, eyni zamanda daha çox iqtisadi münasibətlərə verdiyi töhfələrlə xüsusi imic qazanan Davos İqtisadi Forumunun sayca 55-cisi də ölkəmiz üçün olduqca məhsuldar və faydalı keçdi. Dövlətimizin başçısı Prezident cənab İlham Əliyev forum çərçivəsində qarşı tərəflərin müraciəti əsasında İsrail Dövlətinin Prezidenti İsxak Hersoq, Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts, İraq Kürdüstan Regionunun Baş naziri Məsrur Bərzani, İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid, Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçs, Ukrayna Prezidenti Volodimir Zelenski və digər dövlət rəsmiləri, o cümlədən bir çox beynəlxalq şirkətlərin rəhbəri ilə görüşdü. Dialoqlarda ikitərəfli əlaqələrin gələcək inkişafı, iqtisadi, ticari, mədəni, humanitar əlaqələrin gücləndirilməsi barədə fikir mübadilələri aparıldı, qarşılıqlı maraqdoğuran məsələlər müzakirə edildi. Həmçinin Azərbaycan lideri çoxmilyonluq izləyici kütləsinə malik Çinin CGTN (China Global Television Network) telekanalına müsahibə verərək ölkəmizin beynəlxalq münasibətlər zəminində siyasi, iqtisadi rolunu, qarşıdakı hədəf və prinsiplərini dünya ictimaiyyətinin diqqətinə çatdırdı.***

Səhifə 2

# Azərbaycanın beynəlxalq iqtisadi münasibətlərdəki fəal rolunun ifadəsi –



(əvvəli 1-ci səhifədə)

***Dünyanın reytinqi yüksək olan aparıcı beynəlxalq iqtisadi forumu hesab edilən Davos 1971-ci ildə İsveçrədə biznesmen, professor Klaus Şvab tərəfindən təsis olunub, dövlət və hökumət başçılarının, yüksəkvəzifəli biznesmenlərin, elm və din xadimlərinin iştirakı ilə keçirilən geniş tərkibli illik iclasıdır. Forum əksər hallarda İsveçrənin Davos şəhərində təşkil olunduğu üçün məhz belə adlandırılır.***

# Davos İqtisadi Forumu

DİF-Azərbaycan əlaqələrinin tarixi ötən əsrin 90-cı illərinə təsadüf edir və Ümummilli Liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, 1995-ci il yanvarın 27-31-də dahi şəxsiyyət həmin forumda iştirak edərək münasibətlərin təməlini qoyub və bu gün Prezident cənab İlham Əliyev mövcud ənənəni uğurla davam etdirir. 2007-ci ildən bəri hər il ölkə başçısının Davos İqtisadi Forumuna dəvət alması, Azərbaycanın forumda uğurla təmsil olunması Cənubi Qafqaz liderinin regional siyasi, iqtisadi gücünün, beynəlxalq əməkdaşlıqlardakı etibar imicinin göstəricisidir. Qazanılan yüksək etimadın nəticəsidir ki, 2013-cü il aprelin 12-də Dünya İqtisadi Forumunun iştirakçıları Bakıya gəliblər. "Dayanıqlı dinamizm" devizi altında paytaxt şəhərimizdə keçirilən forum çərçivəsində iqtisadi vəziyyəti proqnozlaşdıran tanınmış iqtisadçılar, ekspertlər, dövlət və hökumət nümayəndələri bəşəriyyəti narahat edən mühüm iqtisadi məsələləri müzakirə ediblər. Dünya İqtisadi Forumunun təsisçisi və icraçı direktoru Klaus Şvab Bakıdakı həmin forumu yüksək qiymətləndirib: "Dünya İqtisadi Forumunun Azərbaycanda keçirilməsi bizim üçün bir qürurdur. Azərbaycan çox böyük imkanların olduğu bir ölkədir. Ümumiyyətlə, son illər ərzində ölkədə çox böyük iqtisadi artım göstəriciləri qeydə alınmışdır. Bu, ilk növbədə, ölkənin müstəsna təbii resurs potensialının düzgün istifadəsi sayəsində mümkün olmuşdur. Eyni zamanda bu nailiyyətlər həmin resurslardan ölkə iqtisadiyyatının şaxələndirilməsində uğurla və bacarıqla istifadə edilməsi sayəsində qazanılmışdır. Azərbaycan informasiya texnologiyaları, maliyyə, tikinti sahələrində çox qabaqcıl bir ölkədir".



## Azərbaycan-DİF maraqları böyük mənada kəsişir

Yanvarın 20-də "Ağıllı əsr üçün əməkdaşlıq" mövzusu üzrə öz işinə başlayan 55-ci Davos İqtisadi Forumu da dünya gündəmi, siyasi elita və iqtisadi ekspertlərdə böyük maraq yaradıb. 100-dən çox ölkədən 350 hökumət nümayəndəsi, o cümlədən 60 dövlət və hökumət başçısının iştirakı ilə forumda qlobal çağırışlar və onların həlli imkanları araşdırılıb. Dünya iqtisadiyyatında yeni texnologiyaların tətbiqi, insan kapitalının inkişafına investisiya qoyuluşu, iş yerlərinin yaradılması, ekoloji təmiz texnologiyaların tətbiqi, geosiyasi gərginliklər və iqlim dəyişikliyi, sosial və iqtisadi dayanıqlıq əsas müzakirə mövzularıdır...

Diqqət yetirsək, görərik ki, forumda müzakirəyə çıxarılan məsələlər Azərbaycanın illərdir, apardığı xarici və daxili siyasi xəttin, reallaşdırdığı layihələrin, proqramların başlıca hədəflərindəndir. Bu xüsusda "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə diqqəti çəkmək olar. Dövlət sənədində "dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat", "dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət", "rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı" prioritetləri yer alıb ki, bu da yeni dünya düzəninin formalaşması prosesində Azərbaycan-DİF maraqlarının böyük mənada kəsişməsi deməkdir. Digər tərəfdən, Davos İqtisadi Forumu Avropa ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsini də əsas iqtisadi məqsədlərdən biri kimi müəyyənləşdirib. Bu cəhətdən də ölkəmizin rolu məxsusi və danılmazdır. Belə ki, ötən dövrdə "Cənub Qaz Dəhlizi" ideyası üzərində vacib addımlar atan Azərbaycan Bakı-Novorossiysk, Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft, Bakı-Tbilisi-Ərzurum, TANAP (Trans-Anadolu təbii qaz boru kəməri), TAP (Trans-Adriatik təbii qaz boru kəməri) qaz layihələri ilə indiki mürəkkəb dövrdə də Avropanın enerji təhlükəsizliyinə ciddi töhfələr verməkdə davam edir. Təqdirəlayiq haldır ki, Davosda da təmsil olunan Avropa ölkələrinin bir neçəsi Azərbaycanla birgə əməkdaşlığa can atan əsas tərəf kimi özünü göstərir, müxtəlif platformalar vasitəsilə enerji hasilatını artırmaq üçün təşəbbüslərlə çıxış edir. 2022-ci ilin iyul ayında Azərbaycan və Avropa Komissiyası arasında "Enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"nun, eləcə də ondan qabaq və sonra bir sıra ölkələrlə qarşı tərəflərin təklifləri əsasında iqtisadiyyat, enerji, nəqliyyat sahələri üzrə əməkdaşlığa dair sənədlərin imzalanması da belə deməyə əsas verir. Azərbaycan tərəfindən bu təşəbbüslərin davamlı dəstəklənməsi qurulan əlaqələrin qısa zamanda əhəmiyyətli nəticələr verməsinə səbəb olub. Belə ki, 2021-ci ildə Azərbaycan Avropaya 8 milyard kubmetr qaz ixrac etmişdirsə, hazırda bu miqdar 12 milyarda çatdırılıb və növbəti iki ildə bu həcm 14 milyard kubmetr, 2026-cı ildən sonra isə daha böyük miqdar hədəflənib. Əldə edilən razılaşmaya əsasən 2027-ci ilə qədər Azərbaycan qazının tədarükü ildə azı 20 milyard kubmetrə çatmalıdır. Təbii ki, beynəlxalq kəmərlər vasitəsilə qaz tədarükünün bu artım tempi, neft hasilatının çoxalması, eləcə də digər güclü iqtisadi amillər ölkəmizin müstəqil xarici iqtisadi siyasətinə etibarın artmasına və ilbəil Davos İqtisadi Forumunda mövqelərinin daha da güclənməsinə gətirib çıxarır...

## Forum iqtisadiyyatımıza yeni sərmayədarların qazanılmasına imkanlar açır

Forumun müzakirə mövzularından biri də günümüzün əsas qlobal məsələsinə çevrilən iqlim dəyişikliklərinin təsirlərinə qarşı mübarizə, eyni zamanda iqtisadiyyatda, sənayedə ekoloji təmiz texnologiyaların tətbiqidir ki, həmin istiqamətlər üzrə Azərbaycan son illərdə ciddi addımlar atır. Bu baxımdan "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də "Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" adlanan 5-ci prioritetin icrasının təmini ilə bağlı görülən işləri qeyd etmək olar. Yeni yaradılan sənaye müəssisələrində "yaşıl texnologiya"ların tətbiqini, Qarabağın, Şərqi Zəngəzurun və Naxçıvanın "yaşıl enerji zonası" elan edilməsinə müvafiq atılan addımları, həmçinin BMT-nin statistik məlumatına əsasən dünya üzrə məşğulluğun 70 faizini təşkil edən KOB-ların fəaliyyətini də məhz Davos İqtisadi Forumuna töhfə kimi dəyərləndirmək olar. Eyni zamanda ölkəmizin "yaşıl gündəliy"i əsasında icra edilən layihələrin məntiqi nəticəsi olaraq ötən il rəsmi Bakının beynəlxalq mötəbər tədbir sayılan COP29-a yüksək səviyyədə ev sahibliyi etməsi, sessiyanın yekununda nəticəyönümlü qərarların qəbulu və beləliklə də iqlim diplomatiyasında dönüş nöqtəsinin əldə olunması da DİF-də müzakirə olunan məsələlərin həlli baxımından olduqca önəmlidir...

Ümumilikdə, onu qeyd etmək olar ki, ölkə başçısı cənab İlham Əliyevin hər il Davos İqtisadi Forumu zamanı müxtəlif mövzulu panel iclaslarda iştirakı, çox sayda ikitərəfli görüşlərin təşkili Azərbaycanın həm siyasi arenada, həm də iqtisadi münasibətlərdə qazandığı uğurun nəticəsi, nüfuzun göstəricisidir. Eyni zamanda bu ənənə ötən illərdə dövlət başçımızın forum çərçivəsində səsləndirdiyi fikirlərə, irəli sürdüyü təşəbbüslərə göstərilən hörmətin, etimadın, verilən dəyərin ifadəsidir. Azərbaycanın Davos İqtisadi Forumuna bəxş etdiyi töhfələrlə yanaşı, DİF-in də respublikamız üçün faydaları kifayət qədərdir. Bu beynəlxalq tədbir ölkə iqtisadiyyatına yeni xarici sərmayədarların qazanılması, eyni zamanda dünyadakı bəzi anti-Azərbaycan qüvvələrə qarşı Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması baxımından olduqca önəmli yerə və rola malikdir. Bütün bu və digər üstün amilləri nəzərə alaraq əminliklə deyə bilərik ki, 55-ci Davos İqtisadi Forumu da ölkəmizin beynəlxalq aləmdə, iqtisadi münasibətlər sistemində nüfuzunun artmasına mühüm töhfələr verəcək.

✍ Nail ƏSGƏROV

# Cənubi Qafqazın ən güclü iqtisadiyyatı: AZƏRBAYCAN

*Tarixi təcrübə göstərir ki, ölkənin iqtisadi müstəqilliyinin və suverenliyinin qarantı olan, eləcə də beynəlxalq münasibətlərdə ona güc qazandıran güclü iqtisadi potensial mövcud təbii iqlim resursları və geostrateji vəziyyətlə yanaşı, həm də düzgün idarəetmə və liderlik bacarığı ilə də sıx bağlıdır. Məhz ona görə də bu gün az qala planetin quru ərazisinin yarısını tutan və saysız-hesabsız miqdarda təbii sərvətlərə malik olan bəzi ölkələr ciddi maliyyə çətinliklərinə və iqtisadi böhrana məruz qalmaqla, əslində, buradakı zəif iqtisadi idarəetmədən də xəbər verir. Bu baxımdan dünyadakı mürəkkəb siyasi, iqtisadi və geostrateji münasibətlər zəminində ölkəsinin maraqlarını ən yüksək səviyyədə qorumağı bacaran Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev regionun lider dövlətinin rəhbəri kimi möhkəm iqtisadiyyat quruculuğunda da öz sözünü deməyi bacarmışdır.*



Cənubi Qafqazın ən güclü iqtisadiyyatına sahib Azərbaycan bu potensiala uyğun olaraq iri dünya gücləri ilə qarşılıqlı etibarlı iqtisadi əməkdaşlığa da həmişə açıq olub, özünü təsdiq etmişdir.

Azərbaycanın mövcud iqtisadi potensialı onun region dövlətləri, eləcə də regiondan uzaqda olsa da, bizimlə sıx iqtisadi-mədəni əlaqələri olan ölkələrlə qarşılıqlı biznes, turizm, kommunikasiya və digər sahələrdə uğurlu layihələr qurmağa imkan yaradır. Hazırda ölkəmizlə uzun illər boyunca etibarlı əməkdaşlıq yaratmış olan Çin, Yaponiya, Cənubi Koreya, İndoneziya, Pakistan, Hindistan, Rusiya, Orta Asiya respublikaları, Ukrayna, Belarus, Baltikyanı ölkələr, Türkiyə, İran, İraq, Yaxın Şərq ölkələri, Şimali Afrika, Qərbi, Şərqi, Mərkəzi və Cənubi Avropa ölkələri və ABŞ daxil olmaqla dünyanın, ümumilikdə, 170-dən çox ölkəsi ilə sıx əlaqələr qurmuşdur. Bunlar arasında, xüsusilə Azərbaycanla qonşu və birbaşa çıxış imkanı olan Türkiyə, Rusiya, Gürcüstan, İran və Orta Asiya respublikaları ilk sırada yerləşir ki, bu da onların ölkəmizlə tarixi qonşuluq, dostluq və qardaşlıq münasibətlərindən irəli gəlir. Tarixi də olmasa, Azərbaycanın qonşuluq qismətinə düşmüş təcavüzkar Ermənistan isə sovet dövründə ölkəmizin zəngin yeraltı və yerüstü sərvətlərindən havayı bəhrələnsə də, müstəqillik illərində normal sülh siyasəti aparıb bundan qarşılıqlı faydalanmaq yerinə əsassız torpaq iddiaları və işğalçılıq əməlləri ilə nəinki özlərini böhran quyusuna salmış, həm də bütün Cənubi Qafqazda ümumi layihələrə ziyan vuran hərəkətlərə imza atmışdır. Halbuki, bütövlükdə, Cənubi Qafqaz təbii iqlim ehtiyatlarından başqa, geostrateji mövqeyi ilə birlikdə elə bir mövqedə yerləşir ki, bunun lazımınca dəyərləndirilməsi hər üç respublikanın iqtisadi inkişafı üçün birgə faydalı ola bilərdi. Ancaq Ermənistan öz-özünü də bloklamaqla Xəzərin zəngin karbohidrogen ehtiyatlarının Avropaya nəqlindən də faydalanmaqdan məhrum qalaraq, sadəcə, hansısa təkrar ixrac əməliyyatları ilə özünün potensialının artırılmasını hədəfləyir. Lakin qonşu Gürcüstana baxsaq, onun birbaşa Qara dənizə çıxışı ilə yanaşı, Azərbaycanla da olan sıx əlaqələri hesabına Avropaya enerji transferi, turizm, nəqliyyat və həmçinin kənd təsərrüfatı məhsullarının ixracı ilə bu gün Cənubi Qafqazın ikinci böyük iqtisadiyyatı olması ilə diqqəti cəlb edir.

**Prezident İlham ƏLİYEV:**

***“Əgər dünya iqtisadiyyatının artım templərinə və inkişaf etmiş ölkələrin inkişafına, yaxud da ki, tənəzzülə nəzər salsaq, görərik ki, Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edib. Əlbəttə ki, bunun təməlində düşünülmüş siyasət dayanır.”***

Ümumilikdə, son illərin nəticələrinə əsasən üç Cənubi Qafqaz ölkəsinin ümumi daxili məhsulunun həcmi 128 milyard ABŞ dollarına çatmışdır ki, onun da 74 milyard dolları Azərbaycanın, 32 milyard dolları Gürcüstanın və cəmi 22 milyard dolları isə Ermənistanın payına düşür. Bununla yanaşı, ölkəmizin valyuta ehtiyatlarının həcminin 72 milyard dollara çatması və xarici borcun həcminin isə cəmi 5,2 milyard dollara bərabər olması burada iqtisadi göstəricilərin olduqca cazibədarlığını özündə ehtiva edir. Ümumilikdə isə bütün Cənubi Qafqazın valyuta ehtiyatlarının 80 faizi Azərbaycanın payına düşür.

Güclü iqtisadiyyata sahib olan Azərbaycan Respublikası bunu təkcə daxili iqtisadi siyasətində və xarici ticarətin artan dinamikasında deyil, həm də mürəkkəb konyunkturaya rəğmən sürdürdüyü siyasətdə nümayiş etdirir. Tarixdə dünyanın neft akademiyası kimi də tanınan Bakının həm də qlobal turbulentliyə qarşı təmkinli və sabit tutumu ilə fərqlənməsi onun dünya biznes aləmində xüsusi çəkisini artıran və ölkəmizə investisiya yatırmaq istəyənlərin sayını çoxaldan amillərdəndir. Bu gün Cənubi Qafqazdakı əksər iqtisadi layihələrin Azərbaycanın müəllifliyi və ya onun maraqları çərçivəsində həyata keçirilməsi, ölkəmizin Asiya ilə Avropa, Şimalla Cənub arasındakı körpü rolunu oynaması, NATO üzvü olan qardaş Türkiyə və eyni zamanda Rusiya ilə strateji səviyyədə əlaqələr quran tək ölkə olması, həmçinin Avropanın 10-dan artıq ölkəsinin enerji ehtiyacını ödəməsi ilə ölkəmiz hər kəs üçün etibarlı tərəfdaş olmağı bacarmaqdadır. Dövlət başçımız Prezident cənab İlham Əliyevin apardığı uzaqgörən siyasət, bu mənada, möhkəm iqtisadiyyat quruculuğunda da öz bəhrəsini verməklə bu gün qlobal Qərb-Şərq arasındakı sanksiya savaşından Azərbaycanın ən az zərərlə çıxmasına şərait yaratmışdır.

Regional münaqişələrin böyüyüb irimiqyaslı müharibələrə çevrilməsi təhlükəsinin yaşandığı, dünya düzəninə məsul olan beş böyüklərin özlərinin bu düzənə zərbə vurduğu bir zamanda iqtisadi gücün ən yaxşı təhlükəsizlik qarantı olduğunu bəyan edən Azərbaycan lideri ölkəsinin maraqları üçün nə lazımdırsa, onu qətiyyətlə həyata keçirir. Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi və neftdən asılılığın azaldılması, “yaşıl enerji”yə və ümumilikdə, “yaşıl iqtisadiyyat”a keçid məsələlərində əldə olunan irəliləyişlər ölkəmizdə iqtisadi artımın dinamikasını qoruyub saxlamağa imkan yaradır. Qarabağın yenidən qurulması və məcburi köçkünlərin doğma torpaqlarına qayıdışı üçün görülən tədbirlər iqtisadi dayanıqlılığı təmin etdikcə burada sənaye, kənd təsərrüfatı, turizm sahələrində yaradılan yeni iş yerləri ölkəmizin iqtisadiyyatına daha da güc qazandırır. Bütün bunlar müstəqil ölkəmizin möhkəm valyutası və ciddi şəkildə tənzimlənən bank-maliyyə nəzarəti altında baş verdiyindən Azərbaycana olan investor marağı da yüksəlmiş olur.

Güclü iqtisadiyyat güclü ordu, güclü ordu isə suveren dövlət deməkdir. Bu gün Cənubi Qafqazın ən güclü iqtisadiyyatına malik olan Azərbaycan həm də öz suverenliyini bərpa edən güclü ordusu ilə də birincidir. Ağır məğlubiyyətinə baxmayaraq, hələ də yeni hücum silahları tədarük edən Ermənistana vaxtı gələndə yerini göstərmək üçün silahlı qüvvələrimiz həmişə birinci olmalı, müasir təminatı ilə düşmənin canına qorxu salmalıdır. Bu gücü isə müzəffər Ordumuz Azərbaycan Prezidentinin qətiyyətindən və ölkəmizin iqtisadi qüdrətindən alır.

**Əli CABBAROV**



# Naxçıvanda 20 Yanvar faciəsinin 35-ci ildönümü yad edilib



Yanvarın 20-də Naxçıvan Muxtar Respublikasında 20 Yanvar faciəsinin 35-ci ildönümü qeyd edilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, dövlət və hökumət nümayəndələri, Ali Məclisin deputatları, Türkiyə Cümhuriyyəti və İran İslam Respublikasının Naxçıvan Muxtar Respublikasındakı Baş konsulları, Naxçıvan Qarnizonu qoşunlarının heyətləri, "Naxçıvan Qaziləri" və "Naxçıvan Şəhid Ailələri" İctimai birliklərinin üzvləri və yüzlərlə sakin şəhidlərimizin əziz xatirəsini yad etmək üçün Naxçıvan şəhərindəki Şəhidlər xiyabanına gəliblər.

Əvvəlcə hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra səlahiyyətli nümayəndə, dövlət və hökumət nümayəndələri şəhidlərin məzarlarını ziyarət edib, hər birinin üzərinə tər qərənfillər düzüblər.

Fuad Nəcəfli şəhidlərin ailə üzvləri ilə görüşüb, ehtiramını ifadə edib.



1918-1920-ci illərdə erməni daşnakları ilə mübarizədə Naxçıvanın köməyinə gələn qardaş Türkiyə ordusunun şəhid olmuş əsgərlərinin xatirəsinə ucaldılmış abidə və xiyabandakı Ana abidəsi də ziyarət olunub, önünə güllər düzülüb.



# Kənd təsərrüfatı naziri Naxçıvana səfər edib

Yanvarın 22-də Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri Məcnun Məmmədov Naxçıvan Muxtar Respublikasına səfər edib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və kənd təsərrüfatı naziri Məcnun Məmmədov Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında ucalan abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.



# Bakıda "Sədərəkdən Şuşaya" sənədli televiziya filminin təqdimatı olub

Yanvarın 18-də Bakıda qəhrəmanlıq tariximiz olan Sədərək döyüşlərinin 35 illiyi münasibətilə Naxçıvan Televiziyasının hazırladığı "Sədərəkdən Şuşaya" sənədli televiziya filminin təqdimatı olub.

Əvvəlcə tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin əməkdaşı Günay Nəzərova "Sədərəkdən Şuşaya" filmi barədə məlumat verib. O bildirib ki, bu film Azərbaycan xalqının qəhrəmanlıq tarixini, milli iradəsini və azadlıq uğrunda mübarizəsini əks etdirən mühüm bir əsərdir. G.Nəzərova vurğulayıb ki, filmdə Sədərək döyüşlərindən başlayaraq Şuşanın azad edilməsinə qədər keçilən şərəfli yol təsvir olunur. Bu yol xalqımızın milli birliyinin, sarsılmaz əzminin və torpaq sevgisinin parlaq nümunəsidir. O qeyd edib ki, şəhidlərimizin qəhrəmanlığı hər zaman qürurla xatırlanacaq və gələcək nəsillərə örnək olacaq.

"Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədri, "Sədərəkdən Şuşaya" filminin layihə rəhbəri və müəllifi Sahil Tahirli "Sədərəkdən Şuşaya" sənədli filminin Azərbaycan xalqının qəhrəmanlıq və vətənpərvərlik tarixini əks etdirdiyini deyib. O qeyd edib ki, şəhidlərimizin qəhrəmanlığı film vasitəsilə gələcək nəsillərə ötürülür və Azərbaycan tarixində əbədi iz buraxır.

Sonra "Sədərəkdən Şuşaya" sənədli televiziya filmi nümayiş olunub.

Filmdə xalqımızın Sədərəkdən Şuşaya qədər keçdiyi böyük Zəfər yolu bir qəhrəmanın nümunəsində göstərilib. Belə ki, film Sədərək döyüşlərindəki qəhrəmanlığı ilə seçilən qazi və tibb bacısı Nəzifə Qaybalıyevanın timsalında təqdim olunur.



Sənədli televiziya filminin təqdimatından sonra çıxış edən Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru, filologiya elmləri doktoru, professor Mahirə Nağıqızı, Azərbaycan Respublikasının Xalq artisti Məmmədsəfa Qasımov, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti İsa Həbibbəyli, REAL Təhlil İnformasiya Mərkəzinin baş direktoru Mirşahin Ağayev və digərləri "Sədərəkdən Şuşaya" filmi barədə təəssüratlarını bölüşərək Sədərək döyüşlərində hər kəsin cəsarətlə, mərdliklə öz doğma torpaqlarını qoruduğunu, birlik nümayiş etdirdiyini bildiriblər. Qeyd olunub ki, Ulu Öndər Heydər Əliyevin "Qeyrət qalası" adlandırdığı Sədərək uğrunda gedən döyüşlərdə Azərbaycan xalqının və əsgərlərinin göstərdiyi qəhrəmanlıq, vətənpərvərlik və fədakarlıq müstəsna əhəmiyyət kəsb edir.

Tədbirdə Dövlət Sərhəd Xidmətinin Veteranlar Şurası tərəfindən filmin baş qəhrəmanı qazi Nəzifə Qaybalıyeva "Cəmşid Naxçıvanski" ordeni ilə təltif edilib. Eyni zamanda filmin ərsəyə gəlməsində iştirak edən şəxslər Naxçıvan Televiziyası tərəfindən fəxri fərmanla təltif olunublar. Həmçinin mərhum şair və jurnalist Vaqif Məmmədovun Sədərək döyüşlərinə aid şeirləri səsləndirilib.

Qeyd edək ki, filmin layihə rəhbəri və müəllifi Sahil Tahirli, filmin məsləhətçisi Anar Tahirov, redaktoru Elnarə Heydərova, rejissoru Razim İsmayıllı, operatorları İlqar Məhərrəmov, Ağali Rəhimov, Uğur Bağırov, musiqi tərtibatçısı isə Yaqut Süleymanovadır.

1990-cı illərin Sədərək döyüşləri xalqımızın qəhrəmanlıq tarixində müstəsna yer tutur. Naxçıvan Muxtar Respublikasının olduqca ağır, mürəkkəb bir vəziyyətdə yaşayıb varlığını qoruduğu həmin illərdə Sədərək erməni quldurlarının əsas sipəri idi. 150 nəfərə qədər qəhrəman Vətən oğlu bu qədim oğuz-türk yurdunun müdafiəsində canı və qanından keçərək şəhidlik zirvəsinə ucalıb, Sədərək, eləcə də bütün Naxçıvanın sovet ordusunun da yaxından dəstək verdiyi Ermənistan silahlı qüvvələri tərəfindən işğalına imkan verməyib.

1990-1993-cü illərdə 14 dəfə ermənilərin güclü hücumuna



məruz qalan Sədərəyə 300-ə yaxın top mərmisi atılıb, 500-ə yaxın ev, məktəb, ictimai-inzibati bina, sosial obyekt dağıdılıb.

1990-cı il yanvarın 19-da Sədərək ilk şəhidlərini verib. Hücumun ilk dəqiqələrindən Naxçıvanın bütün rayon və kəndlərindən Sədərəyin köməyinə gələnlər sinələrini düşmən önündə sipər ediblər. Onlardan biri də həmin vaxt Şərur xəstəxanasında tibb bacısı işləyən Nəzifə Qaybalıyeva idi. O, xəbəri alaralmaz 3 körpə uşağını evdə qoyaraq birbaşa Sədərək döyüşlərinə yollanır. Onlarla yaralını xilas edir, Milli Qəhrəman Məhərrəm Seyidov onun qolları arasında əbədiyyətə qovuşur. O dövrdə Nəzifə xanımın Naxçıvan Televiziyasına verdiyi müsahibədən sonra yüzlərlə gənc Sədərəyin müdafiəsinə qalxır. Bu gün də Naxçıvan Televiziyasının arxivində qorunan həmin kadrları, eləcə də Nəzifə Qaybalıyevanın tarixi müsahibəsini həyəcansız izləmək mümkün olmur.

# Naxçıvanda 20 Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla anılıb



Ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da 20 Yanvar şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Dövlət bayraqları yarıyadək endirilib, sərnişinlərin, nəqliyyatın hərəkəti bir dəqiqəlik dayandırılıb.

# Muxtariyyət tarixində ədliyyənin yeri

*(əvvəli qəzetin 18 yanvar 2025-ci il tarixli nömrəsində)*



*Muxtar respublikada Ədliyyə Nazirliyinin strukturuna daxil olan Penitensiar Xidmət də, öz növbəsində, cəza-icra siyasətinin həyata keçirilməsinə müsbət təsirini göstərmişdir. Məhkumların saxlanma şəraitinin beynəlxalq standartlara uyğunlaşdırılması və onların yaşayış yerlərinə yaxın ərazilərdə saxlanılması istiqamətində tədbirlər görülmüşdür. Qeyd olunmalıdır ki, Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsi ölkəmizdə ilk dəfə olaraq muxtar respublikada istifadəyə verilmiş və məhkumluq həyatı yaşayan insanların müxtəlif peşələr üzrə kurslara cəlbi və azadlığa buraxıldıqdan sonra öz peşələrinə uyğun işlə təmin olunması da diqqət mərkəzində saxlanılmışdır.*

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi ədliyyə sahəsində dövlət siyasətini və idarəetməni həyata keçirir, əhalinin hüquqi maarifləndirilməsində yaxından iştirak edir, qeyri-kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatına və dövlət reyestrinə, penitensiar sistemə, notariat və qeydiyyat orqanlarının fəaliyyətinə rəhbərlik edir. Bununla bərabər nazirlik həm də məhkəmələrin və digər orqanların qərarlarının icrasını, bələdiyyələrə metodoloji yardım və inzibati nəzarəti, məhkəmə ekspertizalarının keçirilməsini və digər vəzifələri təmin edir.

Muxtar respublikada Ədliyyə Nazirliyinin strukturuna daxil olan Məhkəmə Ekspertizası Mərkəzi də fəaliyyət göstərir. Məlumdur ki, məhkəmə ekspertizası mülki, cinayət və digər işlər üzrə həyata keçirilən elm, texnika, incəsənət, sənətkarlıq və başqa sahələr üzrə xüsusi bilik əsasında sübut əhəmiyyətinə malik olan faktiki halların müəyyənləşdirilməsindən ibarətdir.

Ümumilikdə, 11 növ 16 ixtisas üzrə fəaliyyət göstərən mərkəzdə ballistik, trasoloji, narkotik vasitələr, yol-hərəkət hadisələri, tikinti-texniki, əmtəəşünaslıq, xətşünaslıq və başqa növlər üzrə daxil olan işlər qanunvericiliklə müəyyən olunmuş müddətdə başa çatdırılır və qoyulan sualların həllinə nail olunur. Bununla yanaşı, zəruri sahələr üzrə mütəxəssislərin hazırlanması məqsədilə ekspertlər davamlı olaraq təlimlərə cəlb edilir və ekspertiza sahələri üzrə qabaqcıl ölkələrin təcrübəsi öyrənilir.

Qeyd edək ki, "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Azərbaycan Respublikası Prezidenti 2017-ci il 10 fevral tarixli Sərəncam imzalamışdır. Sərəncamın məqsədi ölkəmizin inkişafı və əldə edilən hərtərəfli uğurlar fonunda cəza siyasətinə, cinayət qanunvericiliyinə, məhkumların hüquqlarının təminatı məsələlərinə baxışın yenilənməsi, penitensiar sistemin fəaliyyətinin təkmilləşdirilməsi, bu sahədə dünyada mövcud olan təcrübələrin tətbiqidir. Sərəncamın əsas məqsədlərindən biri də cinayət törətmiş şəxsləri cəmiyyətdən təcrid etmədən islah olunmasını təmin etmək üçün şəraitin yaradılmasıdır. Cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan cəzaların icrasına effektiv nəzarətin təşkili və bu sahədə idarəetmənin səmərəliliyinin artırılması məqsədilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya Xidməti yaradıldı. Qeyd edək ki, tədbirlərin davamı kimi Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2018-ci il 18 may tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində Probasiya sahəsində fəaliyyət istiqaməti yaradılmışdır.

Dahi öndərin ideyalarının hərtərəfli və geniş təbliğində ölkə Prezidenti cənab İlham Əliyevlə yanaşı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da mühüm fəaliyyəti var. Onun təşəbbüsü əsasında gerçəkləşmiş amnistiya aktları cəmiyyətdə ürəkdən dəstəklənmiş, təqdir edilmişdir. Bu amnistiya aktlarının tətbiq edildiyi şəxslər içərisində Naxçıvan Muxtar Respublikasında Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində də cəzaçəkən şəxslər olmuşdur.

**Naxçıvanda aparılan islahatlardan ədliyyə sistemi də pay alır**

Ölkəmizdə aparılan ardıcıl hüquqi islahatlar, eləcə də ədliyyə sisteminin təkmilləşdirilməsi istiqamətində görülən tədbirlər Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyinin fəaliyyətinin də müasir çağırışlara uyğun qurulmasını şərtləndirir.

Məlumdur ki, Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" təsdiq edilib. Dövlət Proqramının məqsədi davamlı iqtisadi artımın təmin edilməsi və vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılması sayəsində Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsi və ölkə iqtisadiyyatına tam inteqrasiyasının təmin edilməsidir.

Ədliyyə orqanları ölkədə aparılan islahatlar fonunda inkişaf edir və təkmilləşdirilir. Belə ki, ölkə Prezidentinin "Ədliyyə orqanlarının inkişafı haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 17 avqust tarixli 446 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2024-cü il 4 iyun tarixli Fərmanı ilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin strukturunda dəyişiklik edilmiş və yenidən formalaşdırılmışdır. Ardıcıl tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 24 dekabr tarixli "Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanı ilə nazirliyin strukturu Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin strukturuna uyğunlaşdırılmışdır. Əminik ki, bu dəyişiklik ədliyyə orqanlarının komplektləşdirilməsinə və çevik idarəetmənin təmin olunmasına xidmət edəcək. Bu da hər bir ədliyyə işçisinə stimul verir ki, üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlsin, öz fəaliyyəti ilə ölkəmizin inkişafına töhfəsini versin.

Ədliyyə orqanları geniş fəaliyyət sahəsinə malikdir. Belə ki, dövlətin kiçik özəyi kimi ailənin qurulmasında ilk addım ədliyyə orqanında nikahın qeydiyyata alınması ilə başlayır. Dünyaya ilk gələn insana doğum haqqında şəhadətnamə də məhz ədliyyə orqanı tərəfindən verilir. Eyni zamanda müxtəlif fəaliyyət istiqamətləri – nikahın pozulması, ölümün qeydiyyatı, vərəsəliklə bağlı münasibətlər və bu kimi digər məsələlər üzrə vətəndaşlar daim ədliyyə fəaliyyəti ilə təmasda olurlar. Yəni insan yarandığı gündən son günədək ədliyyə ilə bağlılığı vardır. Buna görə də ədliyyə, demək olar ki, dövlətin varlığı ilə sıx bağlı bir orqandır. Bir sözlə, dövləti ədliyyəsiz hesab etmək mümkünsüzdür.

Muxtar respublikada bu gün Dövlət proqramları və infrastruktur layihələri uğurla gerçəkləşir, ölkənin iqtisadi qüdrətinin artırılmasında, intellektual potensialın gücləndirilməsində, insanların hüquq və azadlıqlarının təmin olunmasında yaxından iştirak edir. Naxçıvan Muxtar Respublikasının Ədliyyə orqanları bundan sonra da üzərinə düşən məsul işlərin həyata keçirilməsində yüksək səviyyədə iştirak edəcəkdir.

**Hüseyn SƏFƏROV**

***Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri vəzifəsini icra edən, nazir müavini***

## Ordubad şəhərindəki Sərşəhər meydanı bərpa ediləcək



Ordubad şəhərində yerləşən "Sərşəhər məscidi" tarix-memarlıq abidəsinin bərpası üçün layihələndirmə işlərinə başlanılıb.

Bununla bağlı müqavilə bağlanılıb.

Müqaviləyə əsasən Sərşəhər məscidi, Sərşəhər meydanına giriş baştağlarının bərpası və meydanın abadlaşdırılması işləri həyata keçiriləcək.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi sözügedən işlərin icrasını "Storm Building" Məhdud Məsuliyyətli Cəmiyyətinə (MMC) həvalə edib.

Qeyd edək ki, Sərşəhər məscidi XVIII əsrə aiddir. İkimərtəbəli məscidin mehrabı, ağac sütunları, şəbəkəli pəncərələri və meydanı var. 1986-cı ildə bərpa və təmir edilib, meydan kompleksi şəklinə salınıb. Məscid Nazirlər Kabinetinin 2 avqust 2001-ci tarixli Qərarı ilə yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısına salınıb.

## "Şərq qapısı" qəzetinin baş redaktorunun 20 Yanvar faciəsi ilə bağlı məqaləsi İtaliya mediasında işıqlandırılıb

Avropa Xəbər Agentliyinin İtaliya və Vatikan üzrə səlahiyyətli nümayəndəsi, "Eurasiatica-news" (Avropa-Asiya xəbərlər) saytının rəhbəri Karlo Marino "Şərq qapısı" qəzetinin baş redaktoru Sara Əzimovanın "20 Yanvar – Azərbaycan xalqının 35 illik milli azadlıq rəmzi, şərəf tarixi" sərlövhəli məqaləsini dərc edib. Məqalədə 1990-cı ildə Azərbaycan xalqına qarşı törədilən Qanlı Yanvar faciəsinin ictimai-siyasi əhəmiyyəti faktlara söykənərək geniş şərh olunur, faciənin xalqımızın müstəqillik yolunda əsas hərəkətverici qüvvəyə çevrildiyi vurğulanır. Faciə ilə bağlı tarixi həqiqətlərin dünyaya çatdırılmasında, ilk siyasi-hüquqi qiymətin verilməsində Ümummilli Liderimiz Heydər Əliyevin əvəzolunmaz xidmətlərinin diqqətə çatdırıldığı yazıda 20 Yanvar gələcək nəsillər üçün əsl tarix dərsliyi kimi dəyərləndirilir: Azərbaycan tarixinə əbədi həkk olunan Qanlı Yanvar faciəsi dünya azərbaycanlılarının təşkilatlanmasına səbəb oldu, eyni zamanda bu hadisə Azərbaycan milli kimliyinin formalaşmasına təsir göstərdi, müstəqilliyə gedən yolda hərəkətverici qüvvəyə çevrildi. Bütün bu mühüm cəhətlərə, amillərə görə xalqımızın yaddaşında dərin, sarsılmaz iz buraxan 20 Yanvarın mahiyyəti dərindən araşdırılıb öyrənilərək əsl tarix dərsliyi kimi gələcək nəsillərə aşılanır. Nə qədər ki müstəqil, bütöv, suveren Azərbaycan var, 1990-cı ildə tankın, topun qarşısına çıxan əliyalın insanlar, misilsiz şücaət göstərən qəhrəman övladlar heç zaman unudulmayacaq!


"Gennaio di Sangue" in Azerbaigian: riflessioni di Sara Azimova

Facebook

ULTIMI ARTICOLI

"Gennaio di Sangue" in Azerbaigian: riflessioni di Sara Azimova

Accordo di partenariato strategico tra Russia e Iran

La Cina non solo sta vincendo la guerra tecnologica ma sta anche cambiando le regole globali

Ottime le relazioni diplomatiche tra Vaticano e


Məqalə ilə aşağıdakı keçiddən tanış ola bilərsiniz:

*http://eurasiaticanews.altervista.org/gennaio-di-sangue-in-azerbaigian-riflessioni-di-sara-azimova/*

https://www.instagram.com/p/DFDGNhYMqn2/?igsh=d2psa3RtdnZwM240

## Naxçıvanda bələdiyyə seçkilərində polisin xidməti fəaliyyətinə həsr olunan seminar-müşavirə keçirilib




Naxçıvanda Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası (MSK) və Daxili İşlər Nazirliyinin (DİN) birgə layihəsi çərçivəsində 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərində polisin xidməti fəaliyyətinə həsr olunan seminar-müşavirə keçirilib.

Tədbirdə Mərkəzi Seçki Komissiyası və Daxili İşlər Nazirliyinin nümayəndələri, eləcə də muxtar respublika üzrə dairə seçki komissiyalarının sədrləri, polis idarələri və şöbələrinin əməkdaşları iştirak ediblər.

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin İctimai təhlükəsizlik idarəsinin rəisi Cavid Cəfərov bələdiyyə seçkilərinin hazırlanıb keçirilməsində, seçkiqabağı təşviqat dövründə, habelə səsvermə günü və ondan sonrakı proseslərdə polis əməkdaşlarının qanunvericiliklə müəyyənləşdirilmiş rol və vəzifələrindən danışıb.

Mərkəzi Seçki Komissiyasının üzvü Hüseyn Paşayev bildirib ki, qarşıdan gələn bələdiyyə seçkilərinə yüksək səviyyədə hazırlıq görülür. Seçkilərin şəffaf və ədalətli keçirilməsi, həmçinin seçki iştirakçılarının maarifləndirilməsi məqsədilə regionlarda müxtəlif istiqamətlər üzrə layihələr davam etdirilir.

Sonra DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi Sənan Əliyev "Seçki kampaniyası dövründə və seçkilərin keçirildiyi gün ictimai qaydanın təmin edilməsi ilə bağlı polis əməkdaşlarının hüquq və vəzifələri. Seçkidən sonrakı dövrdə seçki bülletenləri və digər seçki sənədlərinin dairə və Mərkəzi Seçki Komissiyasına gətirilməsi zamanı təhlükəsizlik tədbirlərinin görülməsi", Mərkəzi Seçki Komissiyasının üzvü İlkin Şahbazov "Seçki subyektləri, onların hüquq və vəzifələri. Seçki subyektlərinin fəaliyyətinə qanunsuz müdaxilənin yolverilməzliyi" mövzularında çıxış ediblər.

Seminar-müşavirədə bələdiyyə seçkilərində polisin xidməti fəaliyyətinə dair fikir mübadiləsi aparılıb, tapşırıq və tövsiyələr verilib, suallar cavablandırılıb.

## Azərbaycan nümayəndə heyəti Qarsdan Naxçıvan sərhədinədək dəmir yolunun tikintisi layihəsi ilə tanış olub



Qars-İğdır-Aralık-Dilucu dəmir yolu layihəsində aktiv tikinti işləri 2025-ci ilin aprel ayında başlayacaq və təxminən, dörd il davam edəcək.

AZƏRTAC xəbər verir ki, bu barədə Qarsdan Naxçıvan Muxtar Respublikası ilə sərhədə qədər 224 kilometr dəmir yolunun tikintisi layihəsinin icrası həvalə edilmiş Türkiyənin "Kalyon" tikinti şirkətinin nümayəndələri məlumat veriblər.

Bazar ertəsi, yanvarın 20-də Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradovun başçılıq etdiyi Azərbaycan nümayəndə heyəti layihə ilə tanış olub, infrastruktur layihəsinin tikinti sahələrindən birinə baş çəkib.

Nümayəndə heyətini İğdır vilayətinin valisi, Türkiyə Böyük Millət Məclisinin deputatları, ölkəmizin Qarsdakı Baş konsulu Zamin Əliyev, eləcə də Qarsda keçirilən "Qış təlimləri-2025"də iştirak edən hərbi qulluqçular müşayiət ediblər. Bildirilib ki, yeni dəmir yolunun böyük hissəsi Naxçıvan istiqamətində Qarsı İğdırla birləşdirən mövcud marşrut xəttinə paralel çəkiləcək. Tikinti layihəsinə, ümumilikdə, 3,5 minə yaxın türkiyəli mütəxəssis cəlb olunacaq.

Yeni dəmir yolu xətti boyunca geoloji işlər başa çatdırılıb və müvafiq hesabat hazırlanıb. Layihəyə bir neçə stansiyanın, yoldəyişmə məntəqəsinin və yük terminalının tikintisi daxildir.

Regionun inkişafında yeni mərhələnin başlanması ilə əlamətdar olacaq nəqliyyat layihəsinin tezliklə başa çatdırılmasının vacibliyi qeyd edilib.

**Ramin Abdullayev**
*AZƏRTAC-ın xüsusi müxbiri*
*İğdır*

## Dövlət Proqramı əsasında 500 mənzillik yeni yaşayış kompleksi tikilir



Muxtar respublikada ötən ilin sentyabrından başlanan "Yaşıl ada evləri" yaşayış kompleksinin inşaat işləri davam etdirilir. 500-dən artıq mənzildən ibarət olacaq binanın inşaat işləri muxtar respublikanın sosial-iqtisadi inkişafı ilə bağlı 2023-2027-ci illər üçün Dövlət Proqramının icrası istiqamətində aparılır. Kompleks Naxçıvan şəhəri, Əziz Əliyev küçəsində 3,7 hektar ərazini əhatə edir. Beş binanın hər biri 9 blok, 10 mərtəbədən ibarət olacaq. Kompleksin ərazisində yeraltı avtodayanacaqlar, ticarət və digər məqsədlər üçün obyektlər, uşaqlar və böyüklər üçün istirahət guşələri yaradılacaq.

Hazırda soyuq qış ayları olmasına baxmayaraq, tikinti işləri davam etdirilir. Əraziyə 40-dan çox inşaat işçisi cəlb olunub.

Məlumat üçün bildirək ki, yaz aylarından başlayaraq kompleksin ərazisində işlərin daha da sürətləndirilməsi üçün işçi sayı 2 dəfə artırılacaq. Bu isə əhalinin məşğulluğuna töhfə verəcək.

## Hacıvar kənd tam orta məktəbi binasının tikintisi aprel ayında yekunlaşacaq

Naxçıvan Muxtar Respublikasında müvafiq Dövlət Proqramının icrası istiqamətində Babək rayonu, Hacıvar kənd tam orta məktəbi üçün tikilməkdə olan 456 şagird yerlik binada inşaat işləri sürətlə davam etdirilir.

1,83 hektar ərazini əhatə edən 2 mərtəbəli məktəb binası 3 əsas, 1 köməkçi korpusdan ibarətdir. Tikintiyə kifayət qədər işçi qüvvəsi və texnika cəlb olunub.

Məktəbdə müasir standartlara cavab verən 26 sinif otağının tikintisi nəzərdə tutulub.

Qeyd edək ki, inşaat işləri 2025-ci ilin aprel ayının sonlarına doğru yekunlaşacaq, növbəti tədris ilindən etibarən şagirdlər yeni məktəb binasında təhsillərini davam etdirəcəklər.



## "Maliyyə və mühasibat uçotu" təlimlərinin ilk sessiyası olub



Naxçıvan Təlim Mərkəzinin təşkilatçılığı ilə "Maliyyə və mühasibat uçotu" təlimlərinin ilk sessiyası 21-22 yanvar tarixlərdə Naxçıvan Muxtar Respublikası Təhsil və Səhiyyə nazirliklərinin və onların struktur qurumlarında çalışan mühasiblərin iştirakı ilə həyata keçirilib.

İki gün davam edən təlim müddətində iştirakçılar mühasibat uçotu və maliyyə hesabatlılığı sahəsində nəzəri biliklər qazanmaqla yanaşı, real hesabatlar üzərində praktiki bacarıqlarla da tanış olublar.

Təlimin yekununda Naxçıvan Təlim Mərkəzinin İdarə Heyətinin sədri Tağı Tağızadə mərkəzin fəaliyyəti və gələcək planları barədə məlumat verib. Vurğulanıb ki, Naxçıvan Təlim Mərkəzi 2025-ci ildə də müxtəlif təlim proqramları ilə dövlət orqanlarında çalışan əməkdaşların peşəkar inkişafa və bacarıqlarının təkmilləşdirilməsi istiqamətində dəstəyini davam etdirəcək. Cari il ərzində muxtar respublikanın dövlət qurumları, müxtəlif idarə və təşkilatları mütəmadi olaraq zəruri təlimlərə cəlb olunacaq və işçilərin potensialının yüksəldilməsi istiqamətində müvafiq tədbirlər həyata keçiriləcək.

Sonda Tağı Tağızadə iştirakçılara sertifikatlar təqdim edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Keçirilən təlimlərin onların peşəkar biliklərinin artırılmasında mühüm rol oynayacağına və iş mühitində praktiki fayda verəcəyinə inandığını bildirib.

Təlim prosesindəki praktiki nümunələr və ətraflı izahları ilə iştirakçıların tələblərini tam qarşılayan təcrübəli təlimçi Arzuman İmanov isə səmərəli fəaliyyətinə görə təşəkkürnamə ilə təltif edilib.

## "ASAN xidmət" mərkəzində ilk dəfə olaraq təhsil xidmətləri göstəriləcək

Yanvarın 21-dən Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində olan Naxçıvan regional "ASAN xidmət" mərkəzində ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən 6 adda xidmətlərin göstərilməsinə başlanılıb.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Elxan Nəcəfov və Naxçıvan regional "ASAN xidmət" mərkəzinin direktoru Tural Əliyev mərkəzdə nazirlik üçün yaradılan bölmə ilə tanış olub, xidmət göstərəcək əməkdaşlara tövsiyə və tapşırıqlarını çatdırıblar.

Qeyd edək ki, "ASAN xidmət" mərkəzində nazirliyin əməkdaşları tərəfindən vətəndaşlara məktəbəqədər təhsil müəssisələrinə və uşaqların məktəbəhazırlıq qruplarına elektron qeydiyyat, ümumi təhsil müəssisələrinin birinci siniflərinə şagird qəbulu, peşə təhsili müəssisələrinə tələbə qəbulu, şagirdlərin elektron yerdəyişməsi, təhsil sahəsində vətəndaş müraciətləri üzrə məsləhətçi xidmətləri göstəriləcək.

Vətəndaşlar mərkəz vasitəsilə bu elektron müraciət xidmətlərindən yararlana biləcəklər. Bununla da elektron qeydiyyat prosesində hər hansı çətinlik çəkən və ya məlumatsız vətəndaşlar bundan sonra "ASAN xidmət" mərkəzinə yaxınlaşaraq konsultativ dəstək ala biləcəklər. Mərkəzdə göstəriləcək təhsil xidmətlərinin hər biri Təhsil Nazirliyi tərəfindən elektron qaydada ödənişsiz həyata keçiriləcək.

Məlumat üçün bildirək ki, vətəndaşların müraciət imkanlarının operativ cavablandırılması, vətəndaş məmnunluğunun artırılması üçün Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən gələcəkdə "ASAN xidmət" mərkəzində əlavə xidmətlərin də göstərilməsi planlaşdırılır. Belə ki, gələcəkdə mərkəzdə təhsil müəssisələrinə direktorların, müəllimlərin, yardımçı tədris heyətinin və digər vəzifələrin işə qəbulu zamanı sənəd qəbulu və təhsilverənlərin sertifikatlaşdırılmasının qeydiyyatı prosesi xidmətlərinin də göstərilməsi nəzərdə tutulur.



















# Böyük uğurlara imza atan gənc rəssam



Hər bir rəssamın fırçası ilə düşüncələrini sənətsevərlərə təqdim etdiyi yaradıcı dünyası var. Bu sənət sahibləri hər nə qədər eyni rənglərdən istifadə etsələr də, onların hər biri fərqli baxışlara malikdir. Belə rəssamlardan biri də Azərbaycan Rəssamlar İttifaqının üzvü Araz Xudiyevdir. Araz Xudiyev rəssamlıqla məşğul olmaqla yanaşı, həm Naxçıvan Rəssamlar Birliyində rəssam-dizayner vəzifəsində, həm də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrında dekorçu-rəssam kimi fəaliyyətini davam etdirir. Realizm üslubuna üstünlük verən Araz gözəl rəngkarlıq, qrafika əsərləri ilə yanaşı, həm də ibrətamiz karikaturalar müəllifidir. Rəssam bir neçə kitab üzlükləri işləyib. Onun bu günümüzün aktual mövzularına uyğunlaşdıraraq “Molla Nəsrəddin” baxış bucağından boylandığı karikaturlar zaman-zaman “Şərq qapısı” qəzetinin səhifələrində də yer almaqdadır.

Gənc rəssamın çəkdiyi əsərlər arasında “Culfanın ecazkar dağları”, “Xalq artisti Həsən Məmmədovun portreti”, “Zəfərə doğru”, “Nar şirəsi”, “Lalələr” və sair rəsmləri onun yaradıcılıq dünyasının çoxşaxəliliyindən xəbər verir. Bu əsərlərində rəssam sevdiyi özünəməxsus rəng çalarlarından istifadəyə səy göstərir, sənətdə öz fırçası ilə yeniliklərə can atır. Yaxşı haldır ki, o buna nail ola bilir.

Araz “Naxçıvan Bəşəriyyətin Beşiyi” IV, V, VI beynəlxalq rəsm festivallarının iştirakçısı olub. 2019-cu ildə muxtar respublika rəssamları arasında Naxçıvan Muxtar Respublikasının 95 illiyi münasibətilə keçirilən festival-müsabiqədə qrafika üzrə 1-ci yerə sahib çıxıb.

Qeyd edək ki, rəssam ölkəmizdə keçirilən COP29 tədbiri münasibətilə hazırlanan Eluca Atalının “Odunçunun nağılı” adlı tamaşasının quruluşçu rəssamı olub. Əsər Naxçıvan şəhərində, eləcə də paytaxt Bakıda keçirilən COP29 festivalında tamaşaçılara təqdim edilib. Alqışlarla qarşılanan əsərdə müəllif ideyasının açılması üçün onun quruluşçu rəssam fəaliyyəti də əhəmiyyətli rol oynayıb.

Gənc rəssamın gələcək arzuları çoxdur. O, ölkəmizin qədəm qoyduğu yeni inkişaf mərhələsini fırçasının gücü, özünün təxəyyülü ilə əbədiləşdirmək istəyir. Digər mövzularda da xeyli layihələri var. İnanırıq ki, Araz arzusunda olduğu mövzuları ərsəyə gətirməklə öz tamaşaçı auditoriyasına yeni sevinclər bəxş edəcək.

# “Şərq qapısı”: tarixi mədəni abidələrimizə cavabdehlik haqqında



“Şərq qapısı” qəzeti fəaliyyət göstərdiyi müddətdə muxtar respublikanın ictimai-siyasi həyatında bir salnamə rolunu oynamışdır. Bu cəhətdən qəzetdə qədim diyarımızın tarixi abidələri ilə bağlı yazılar da geniş yer alıb. Sovet dönəmində abidələrimizə göstərilən ögey münasibət hesabına tarixi mədəni irsimizin dağıdılaraq sıradan çıxarılması ziyalılarımızın haqlı narazılığına səbəb olmuş, bununla bağlı onlar etiraz səslərini ucaltmışlar. Redaksiyanın arxivində qorunub saxlanan saralmış qəzet səhifələrini vərəqlədikcə həm ovaxtkı biganəliyi, həm də elə biganəliyə qarşı fəal vətəndaşlıq mövqeyini ortaya qoyan ziyalılarımızın yazıları ilə rastlaşırıq. Bu yazılara İsmayıl Musayevin “Abidələrə qayğı gərəkdir”, Kamil Hacıyev və İsmayıl Hacıyevin “Xanəgah türbəsi”, Rafiq İmanovun və Maqsud Mahmudovun “Tarixi abidələr qayğı gözləyir” adlı yazılarını nümunə çəkə bilərik. Bu yazılarda doğma yurdumuzda min illər yaşı olan maddi-mədəniyyət abidələrimizin acınacaqlı vəziyyətə salınması müəlliflər tərəfindən ürək ağrısı ilə qələmə alınıb.

İsmayıl Musayevin adını çəkdiyimiz yazısında oxuyuruq: “Ə.Salamzadənin on il bundan əvvəl çap olunmuş “Əcəmi Əbubəkr oğlu və Naxçıvan memarlıq abidələri” kitabında: “Qarabağlar türbəsinin yuxarı günbəzi dağılmışdır. Aparılan tədqiqatlar onun konusşəkilli olduğunu isbat etməyə imkan vermiş və hazırda tərtib edilən layihələrdə günbəz konus şəklində verilmişdir” sözlərini oxuyandan sonra elə güman etmək olar ki, aid təşkilatlar tariximizin canlı şahidlərindən biri kimi bu qiymətli abidənin bərpasını təxirəsalınmaz işlərdən hesab edəcək, bu işə bir əncam çəkəcəklər. Ancaq yazını sona qədər oxuyub görürük ki, bərpası tapşırılmış təşkilat öz vəzifə borcuna məsuliyyətlə yanaşmayıb. Səhlənkarlıq göstərərək dağılmaqda olan abidənin təmirini yubatmaqda yersiz bəhanələr gətirən təşkilatı müəllif çox doğru olaraq ciddi tənqid atəşinə tutub.

Rafiq İmanov və Maqsud Mahmudovun birlikdə qələmə aldıqları “Tarixi abidələr qayğı gözləyir” adlı yazı da ziyalı mövqeyi ilk baxışdan hiss olunur: “...bu abidələr Vənəndin, Ordubadın, muxtar respublikamızın tarixidir. Keçmişimizə biganəlik etməyi heç kimə bağışlamaq olmaz. Vənənddəki tarixi abidələri əsaslı şəkildə bərpa edib gözəl görkəmə salmaq, habelə muxtar respublikamıza gələn turistləri bu abidələrlə tanış etmək vaxtı çoxdan çatmışdır. Belə bir xeyirxah iş öz həllini gözləyir. Yəqin ki, Naxçıvan MSSR Mədəniyyət Nazirliyi Vənənddəki tarixi abidələrə olan laqeydliyinə son qoyacaq, onları xalqın istifadəsinə verməyə çalışacaqdır”. Müəlliflərin yurd yerinə yaraşıq verən, tarix yaşadan abidələrinə belə cavabdehlik hissləri oxucuda da tariximizi özündə saxlayan abidələrimizə məhz bu mövqedən yanaşmaq hissini formalaşdırır.

Kamil Hacıyev və İsmayıl Hacıyevin yazısında oxuyuruq: “Xanəgah türbəsi orta əsrlər dövründə Azərbaycanda tanınmış mədəniyyət ocaqlarından olmuşdur. Türbə səkkizguşəlidir. İndi bu guşələrdən yeddisi salamatdır. Xanəgah türbəsi Əcəmi Əbubəkr Naxçıvaninin tələbəsi Cəlaləddin tərəfindən XIII əsrin sonu – XIV əsrin əvvəllərində tikilmişdir. Türbənin tikintisində yonulmuş daşdan, bişmiş kərpicdən və gəcə oxşar sarı məhluldan istifadə edilmişdir. Memar məqbərəni inşa edərkən rəngli saxsılardan, mürəkkəb həndəsi naxışlardan, rəngkarlıq sənətindən bacarıqla istifadə etmişdir.

Əmir Teymur qoşunlarının hücumlarına qarşı 14 il müqavimət göstərmiş Əlincə qalası kompleksinin mühüm abidəsində – Xanəgah türbəsində qazıntı və bərpa işləri davam edir”.

*Bu gün sevinirik ki, o vaxt çalınan həyəcan təbili artıq müstəqillik dövrümüzdə öz bəhrəsini verib. Muxtar respublikanın bütün bölgələrində olan həmin abidələr qeydə alınaraq pasportlaşdırılmış, bir çoxu yenidən restavrasiya edilmişdir. Bununla bağlı “Şərq qapısı” öz səhifələrində bu məsələlərə də yer ayırmışdır.*





# Culfadakı abidənin Britaniya ekspedisiyasındakı əksi



***Təsadüfən alimə keçən tarixi bir kitabda bir şəkil diqqətimi çəkdi. Bunun da səbəbi həmin şəkildə Gülüstan türbəsinin təsvir olunması idi. İngilis dilində olan mətnin tərcüməsinə ehtiyac duydum. Qənaətimdə yanılmadığımı gördüm. Bu məsələ də həllini tapdı. Bunun üçün mənə köməklik göstərən ziyalılarımıza minnətdarlığımı bildirirəm. “Şərq qapısı” qəzetinin əməkdaşı kimi oxucularımıza da bu kitabda özünə yer almış bəzi faktlar haqqında məlumat vermək istədim.***

Məlumdur ki, qədim diyarımız Naxçıvan mövcudluğunun bütün dövrlərində tarixçilərin, səyyahların diqqət mərkəzində olub. Onlar bu yurd yerimiz haqqında gördüklərini, burada yaşadıqları təəssüratları qələmə alıblar. Təəssüf ki, bəzi hallarda təhrif olunmuş şəkildə. Ancaq xalqımızın ziyalıları həmişə tariximizin təhrif edilməsinə etiraz səslərini ucaldıblar. Bunlar məsələnin bir tərəfidir. Belə ki, 1835, 1836 və 1837-ci illərdə Britaniya hökumətinin sifarişi ilə Dəclə və Fərat çaylarının tədqiqi ilə bağlı ekspedisiya təşkil olunub. Ekspedisiya materialları 1850-ci ildə toplanaraq kitab şəklində nəşr edilib. “Dəclə və Fərat çaylarının ekspedisiyası” adlı həmin kitabda Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Gülüstan kəndindən şərqdə, Araz çayından 100 metr şimalda qırmızı qumdaşından inşa edilən eyniadlı türbənin tuşperu texnikası ilə işlənmiş qrafik təsviri yerləşdirilmişdir. Əsərin o dövrdə səyyah kimi bu ərazilərdə olmuş ingilis generalı və kəşfiyyatçısı Françis Ravdon Çesney tərəfindən çəkildiyi təxmin edilir. Rəsm əsərində XIII əsr memarlıq abidəsi olan Gülüstan türbəsinin günbəzi uçulmuş formada görünür. Günbəzi uçuq halda olan türbənin üzərində isə quşlar yuva salıb. Əsərdə Arazboyu abidələrdən Şah Abbas, Ziya-ül Mülk körpüləri və karvansaranın qalıqlarını görmək mümkündür. Eləcə də həmin ərazidə at belində durmuş şişpapaqlı yadelli əsgərlər də təsvir olunmuşdur. Üç atlıdan birinin baş geyimi digərlərindən forma etibarilə fərqlənir.

Yuxarıda qeyd etdiyimiz kimi, tarixi yurd yerlərimizə zaman-zaman səyyahlar gəlsə də, öz qeydlərində həmişə düzgün mövqe bildirməmişlər. Adıçəkilən bu kitabda da, təəssüf ki, Azərbaycan ərazisi bədnam qonşumuz olan Ermənistanın ərazisi kimi göstərilir. Qeyd edək ki, Şərq memarlığı üslubunda ucaldılan Gülüstan türbəsi Əcəmi memarlıq məktəbinin təsiri ilə ucaldılmış qülləvari türbələr siyahısına aiddir. Atalar deyiblər ki, yalan ayaq tutar, amma yeriməz.

Gülüstan türbəsi bu torpaqların kimə aid olduğunu bir daha təsdiq edir.

***Səhifəni hazırladı:***
**Aidə İBRAHİMOVA**

# Naxçıvanda yeni hərbi təhsil müəssisəsi, gələcəyə hesablanmış hədəflər

**Prezident İlham ƏLİYEV:**

*“Gənc kadrların hazırlanması prosesi bizim gələcəyimizi şərtləndirən amildir. Hər bir sahədə, o cümlədən hərbi sahədə gənc peşəkar kadrlara ehtiyac vardır.”*



*Sürətlə dəyişən zaman, günbəgün müasirləşən texnologiyalar, tətbiq olunan yeniliklər cəmiyyət həyatının bütün sahələrinin bu inkişafla ayaqlaşmasını zəruri edir. Xüsusilə təhsil dövlətin prioritet sahələrindən olduğu üçün qabaqcıl təcrübələrdən bəhrələnmək vacib amil kimi önə çıxır. Bəzən tarixi gedişat əsasında qazanılan təcrübə də zəruri islahatların qısa zamanda aparılmasını şərtləndirir.*














### 70-ci illərdən başlanan milli ordu quruculuğu

Ölkədə hərbi təhsil sisteminin əsası Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və səyi ilə 70-ci illərdə qoyulub. Azərbaycanın gələcəyinə hesablanmış bu mühüm addım illər sonra I Qarabağ müharibəsində özünü göstərdi. Müstəqilliyinə yenicə qovuşmuş ölkədə aparılan ordu quruculuğunun kadr potensialının əsasını həmin dövrdə təhsil almış zabitlər təşkil etdi. Peşəkar ordu quruculuğu ağır proses olduğundan zamanı qabaqlayan tarixi qərarlar qəbul edildi, hərbi təhsil sisteminə növbəti baxış, dəyişikliklər, bu istiqamətdə görülən mühüm işlər həm də yeniliklərlə müşayiət olundu. Belə ki, Naxçıvan tarixində ilk olaraq hərbi təhsil ocağı yaradıldı. 1998-ci ildən fəaliyyətə başlayan lisey ətrafına yüzlərlə gənci yığa bildi. Hansı ki o gənclər Vətən müharibəsində, antiterror tədbirlərində öz bilik və bacarıqlarını şücaətləri ilə ortaya qoydular. Torpaqlarımız işğaldan azad olundu, ərazi bütövlüyümüz təmin edildi.

### Zamanın tələbi: xüsusi təyinatlı təhsil müəssisələri

Ərazi bütövlüyü bizim konstitusion hüququmuzdur və bu hüququn qazanılmasına töhfə verən zəfərimiz, ölkə başçısının qətiyyəti, qəbul etdiyi mühüm qərarlar hərbi təhsil sisteminə yenidən baxışı şərtləndirmişdir. “Gənclərin hərbi sahədə təhsil almasının təşviq edilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 14 dekabr tarixli Fərmanına əsasən Milli Müdafiə Universitetinin tabeliyində Bakı, Gəncə və Naxçıvan şəhərlərində hərbi kolleclər yaradılmışdır.

### Naxçıvanda ikinci hərbi təhsil ocağı

Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Naxçıvan Hərbi Kollecindəyik. “Xudayar təsnifi”nin sədaları altında tədris korpusuna daxil oluruq. Bizi bölmə rəisi, mayor Elvin Qurbani qarşılayır. Öyrənirik ki, kollecdə böyük tənəffüslərdə vətənpərvərlik mahnıları səsləndirilir. Çox gözəl! Zamanın dəyişdirə bilmədiyi tək qüvvə də məhz belə vətənpərvərlik duyğuları olub. Bu duyğular müqəddəs hissə çevrilərək yüzlərlə gəncin həyat yoluna işıq salıb. Hərb peşəsinə könül veriblər, Vətən sevgisini bütün hisslərdən uca tutublar və nəhayət, bu yolda şəhidlik zirvəsinə ucalaraq qürur yerimizə, örnək göstərə biləcəyimiz qəhrəmanlara çevriliblər.

44 günlük Vətən müharibəsi bizə həm də çox yaxşı nümunələr sergilədi. Ən əsası da xalq-ordu birliyinin bariz təcəssümünü dünyaya göstərə bildik. Həmsöhbətimiz, bizi kolleclə tanış edən mayor Elvin Qurbani deyir ki, ilbəil, xüsusən də Vətən müharibəsindən sonra gənclərin hərb peşəsinə marağı ikiqat artıb. Valideynlər də onların bu peşəyə sevgisini dəstəkləyir.

2024-2025-ci tədris ilindən fəaliyyətə başlayan Naxçıvan Hərbi Kolleci müxtəlif ixtisaslar üzrə orta ixtisas təhsili və əlavə təhsil proqramlarını həyata keçirən xüsusi təyinatlı təhsil müəssisəsidir. Kollecə qəbul “Hərbi vəzifə və hərbi xidmət haqqında” və “Təhsil haqqında” Azərbaycan Respublikasının qanunlarına uyğun həyata keçirilir.

Kollecə tam orta təhsili olan şəxslər, zabit hərbi rütbəsi olmayan hərbi qulluqçular və hərbi vəzifəlilər qəbul edilirlər. İki il müddətində əyani formada təhsil alan kursantlar ödənişsiz yataqxana və gündə 3 dəfə yeməklə təmin olunurlar. Həmçinin onlar üçün müəyyən məbləğdə birdəfəlik və təhsil müddətində aylıq ödəmələr təsis edilib. Məqsəd Azərbaycan Ordusunun peşəkar kadrlarla təminatını gücləndirmək, subbakalavr peşə-ixtisas dərəcəli mütəxəssislər hazırlamaq və əlavə təhsil üzrə kadr hazırlığını həyata keçirməkdir.

4 hektar ərazidə yerləşən təhsil kampusu 7 binadan və yardımçı qurğulardan ibarətdir. Ən son avadanlıqlarla komplektləşdirilən kollecdə informasiya texnologiyalarının, xarici dillərin tədrisinə xüsusi önəm verilir. Zəngin kitabxana fondu, idman zalı, futbol meydançası, idman qurğuları, mədəni-kütləvi tədbirlərin keçirilməsi üçün klub-konfrans zalı, yataqxana, sosial-xidmət mərkəzi kursantların fiziki, mənəvi-psixoloji hazırlıqlarının, həmçinin istirahətinin təşkilinə imkanlar açır. İkiillik təhsil müddətini başa vuran kursantlar gizir kimi Azərbaycan Ordusunun hərbi hissə və bölmələrində xidmətə başlayacaqlar.

“Vətən müharibəsi onu göstərdi ki, kiçik komandir heyəti tərəfindən döyüşlərdə bölmələrin idarə edilməsi daha məqsədəuyğundur. Odur ki, peşəkar, təhsilli, mənəvi-psixoloji və fiziki cəhətdən hazırlıqlı kadrların yetişməsi günün tələbidir. Hərbi kollecin yaradılması bu baxımdan böyük əhəmiyyət daşıyır və yetişdirdiyi məzunlar, təbii ki, gələcəkdə fəaliyyətləri ilə öz töhfələrini verəcəklər”, – deyə kollecin zabiti, mayor Kənan Şirinov söhbətə qoşulur. Qeyd edək ki, Kənan Şirinov Xocavənd, Daşaltı, Şuşa istiqamətlərində gedən döyüşlərdə iştirak edib. “Döyüşdə fərqlənməyə görə”, “Şuşanın azad olunmasına görə” medalları ilə təltif olunub. Bildirir ki, Azərbaycançılıq ideyalarına, geniş dünyagörüşə malik, müasir təfəkkürlü, silah və hərbi texnikanı mükəmməl bilən orta ixtisas təhsilli mütəxəssislərin hazırlanması bizim əsas məqsədimizdir.

### Arzuların astanasında və ya kursantlarla söhbət

Bu məqsəd ətrafında birləşən kursantların bir neçəsi ilə həmsöhbət oluruq. Bildirək ki, kollecdə ölkənin müxtəlif bölgələrindən olan gənclər təhsil alır. Kursant Nihad İbrahimov Beyləqan şəhərində doğulub. Atası baş gizir Elçin İbrahimov bir müddət Naxçıvanda xidmət edib. Nihad da atasının yolunu davam etdirmək üçün təhsilini Naxçıvanda almaq qərarına gəlib. Sərbəst güləş və qaydasız döyüş növü ilə məşğul olan Nihad bir sıra beynəlxalq yarışların iştirakçısı olub. 3 qat Azərbaycan çempionu, göy kəmər ustasıdır. Milli Qəhrəman Mübariz İbrahimov onun həyat idealıdır. Arzularını reallaşdırmaq üçün dərslərini də axsatmır.

Kursant Havadar Dilavərli Bakı şəhərindəndir. Məqsədi peşəkar hərbçi kimi yetişməkdir. Deyir ki, kollecdə nizam-intizam və tədris şəraiti yüksək səviyyədədir. Bu da imkan verir ki, biz hərbi biliklərə dərindən yiyələnək.

Fərid Abdullayev Şərur rayonunun Tumaslı kəndindəndir. Atası Amur Abdullayev kimi o da ömrünü hərbə bağlamaq qərarı ilə yolunu kollecdən salıb. Həmkəndlisi Ruzi Həsənov da Fəridlə bərabər bu yolu seçib. Hər ikisi bu yolda qətiyyətlə addımlayır.

Xəzri Vəliyev Şahbuz rayonunun Keçili kəndindəndir. Keçili kəndi Vətən müharibəsində Mərhəmət Həmzəyev kimi qəhrəman oğul şəhid verib. Xəzri Vəliyev deyir ki, burada yaxşı dostlar qazanmışam. Məqsədimin astanasındayam və çox qürurluyam.

İsmayıl Quliyev Babək rayonunun Cəhri qəsəbəsindəndir. Uşaqlıqdan qəhrəmanların döyüş yolunu izləyən İsmayıl seçimini edib: qalib Azərbaycan Ordusunda xidmət etmək. Kollecin fəaliyyətə başlaması onu arzusuna bir addım daha yaxınlaşdırıb.

Vüsal Qənbərov Milli Qəhrəman Kərim Kərimov adına Qarahəsənli kənd tam orta məktəbini bitirib. Şərur rayonunun bu kiçik yaşayış məntəqəsi Vətən torpaqlarının azadlığı uğrunda gedən döyüşlərdə 4 şəhid verib. Kəndin yeniyetmələri hər zaman qəhrəmanları ilə qürur duyub, bu yolu davam etdirənlər az olmayıb. Vüsal da onlardan biridir.

Kollecin zabit, müəllim və kursantları ilə apardığımız söhbətlər, müşahidə etdiklərimiz və aldığımız təəssürat onu deməyə əsas verir ki, bu təhsil müəssisəsi qısa zamanda Azərbaycan Ordusunun döyüş hazırlığının və ümumilikdə, dövlətin müdafiə qabiliyyətinin artırılması istiqamətində hərbi qulluqçuların hazırlanması işinə yüksək səviyyədə müvəffəq olacaq, ordu sıralarının peşəkar kadrlarla təminatına öz layiqli töhfəsini verəcəkdir.

✍ **Ruhiyyə RƏSULOVA**



*"Şərq qapısı" qəzeti ötən ildən yeni layihəyə start verib. Belə ki, qəzetimizin nömrələrində şəhid analarının övladları haqqında xatirələri yer alır. 44 cümləyə sığışdırılacaq hər bir xatirənin şəhidlərimizə böyük sevgi və ehtiram kimi oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliyimizi bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, belə igid oğullar böyütmüş analarımıza minnətdarlığımızı ifadə edirik. Bugünkü nömrəmizdə Şahbuz rayonunun Kükü kəndindən olan şəhidimiz Kamran Hüseynovun atası Bəhman Hüseynov, Sədərək rayonunun Sədərək kəndindən olan şəhidimiz Niyaməddin Ələkbərovun anası Xavər Ələkbərova və Culfa rayonunun Xoşkeşin kəndindən olan şəhidimiz Coşqun Orucovun anası Fərqanə Bağırovanın övladları haqqında xatirələri yer alıb.*

# 100 ilin qəhrəmanları

## Kamran Bəhman oğlu Hüseynov

*(14.08.1996-01.10.2020)*

## Bizi onun xatirələri yaşadır





Kamran çox ağıllı, qorxmaz uşaq kimi tanınmışdı kəndimizdə. Həm də diqqətcil idi. Dərslərini də yaxşı oxuyurdu. Ali təhsil almışdı Kamran. Həddindən çox vətənpərvər idi. Həm də ailəcanlı oğul olmuşdu. Deyirlər, ailəsini sevən Vətənini də sevər. Bəli, bu ifadə çox doğrudur. Kamran da belə oğullardan biri idi. Onun haqqında keçmiş zamanda danışmaq çox ağırdır mənim üçün. Nə etmək olar? Öz canını ailəsinə, Vətəninə qurban verdi oğlum.

Kamran çox qoçaq uşaq idi. Çalışdığı qədər hər kəsə köməklik edərdi. Balaca vaxtı kənddə bütün yaşlıların qayğısına qalardı. Onların işlərini görərdi. Çöldən mal-qaranı gətirərdi.



Bu xasiyyətini sonralar da tərgitmədi. İş yoldaşları danışırdılar ki, hər birimizin işinə köməklik edərdi.

Kamran müharibəyə könüllü getmişdi. Hətta ilk müraciətində geri qaytarmışdılar. Çünki həmin vaxt Kamranın bir uşağı var idi. Həmçinin evin tək oğlu idi Kamran. Amma Kamran evdə otura bilmədi. İkinci dəfə yenidən müraciət etdi. Bu dəfə müraciətini qəbul etdilər. Arzusuna çatdı.

Kamran həm də mehriban idi. Bizi lap çox sevirdi. Evə gələn kimi ilk işi mətbəxə keçib anasını soruşmaq olurdu. Bilirdi ki, anası onun üçün sevdiyi yeməyi hazırlayır. Anasını qucaqlayıb üzündən öpürdü. Əzizləyirdi. Anası da deyirdi ki, ay Kamran, iş paltarın yağ olacaq. Deyirdi ki, yox, səni öpməmiş yemək yemərəm. Şəhid olduqdan sonra da anası nə vaxt mətbəxə keçirdi elə bilirdi, indicə Kamran gələcək. Yenə onu  qucaqlayacaq.

Bizi onun xatirələri yaşadır. Oğluma minnətdaram ki, başımızı uca etdi. Onunla fəxr edirəm. Hər yerdən xoş sorağını eşitdik, müharibədə isə qəhrəmanlığını. Allah bütün şəhidlərimizə rəhmət etsin. Ölümündən qorxmayaraq Vətən torpağına dönən o igidlər həmişə qəlbimizdə yaşayacaqlar. Vətən sağ olsun!

## Niyaməddin İsrafil oğlu Ələkbərov

*(12.07.1989-03.10.2020)*

## Bəy köynəyi Vətən bayrağı oldu





Niyaməddin Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunda anadan olmuşdu. Sumqayıt şəhərində böyümüşdü. Orta məktəbi də Sumqayıt şəhərində bitirmişdi. İdmanla məşğul olmağı çox sevərdi. Ən çox da futbol oynayardı. O, futbol oynayanda qapıda dayanmaqdan çəkinirdilər rəqib komandanın oyunçuları. Deyirdilər ki, Niyaməddinin vurduğu topu tutmaq mümkün deyil. Dostları ilə çox səmimi idi.

Həqiqi hərbi xidmətdən sonra ordu sıralarında qaldı. Elə o vaxt hamının hörmətini qazanmışdı. Komandirləri də, əsgərləri də onu öz qardaşları kimi sevirdilər. 11 il gizir kimi xidmət etdi ordu sıralarında. Xidmətə Ağdam rayonunda başlamışdı. Tərtər, Naftalan, Beyləqan rayonlarında xidmətini davam etdirmişdi. Kəşfiyyat bölüyündə olduğu



üçün Vətən müharibəsi başlanmazdan iki ay öncə cəbhə bölgəsinə göndərilmişdi. Həmin günlərdə ona zəng vurub hal-əhval tutanda deyirdi ki, mən uzaqdayam, döyüş bölgəsinə yaxın deyiləm. Bir gün də söhbət edəndə soruşdum ki, oğul, deyirlər, müharibə olacaq. Cavab verdi ki, ay ana, Ali Baş Komandan əmr verdikdən sonra mən hazıram döyüşə getməyə. Bu torpaq  bizimdir. Özün də cəbhə kəndində yaşamısan. Sədərəkdə döyüş gedən günlərə şahid olmusan. Bilirsən ki, bu düşməni sözlə başa salmaq olmur. Döyüşüb torpağı azad etməyimizdən başqa yol yoxdur. Hər birimiz bu Vətən üçün döyüşməyə, şəhid olmağa hazırıq.

Balam elə yaraşıqlı idi ki. Yaraşığını Aydan, boyunu çinardan almışdı sanki. Onu Allah mənə seçib vermişdi. O, evdə olanda toy-bayram idi. Mənim 4 övladım var – iki qız, iki oğlan. Niyaməddin evin üçüncü övladı idi. Qardaşının balalarını qucağından yerə qoymazdı. Onlar nə istəsə alardı. Gəzməyə aparardı, əzizləyərdi. Əl qabiliyyəti də, danışıq qabiliyyəti də çox gözəl idi. Ona görə də hara getsə, tez özünə dost, yoldaş tapardı. Müharibə beş ildir ki, bitib, amma mən hələ də inanmıram onun əbədiyyən məndən ayrıldığına. Qardaşı balaları tez-tez soruşurlar ki, əmim hara gedib? Cavab verə bilmirəm. Bütün sevincimi apardı oğlum. Atası ilə o qədər bir-birinə bağlı idilər ki... Atası Niyaməddinin şəhid olmasına dözə bilmədi. Dünyasını dəyişib balasına qovuşdu. Müharibə bitəndən sonra xidmət etdiyi hərbi hissəyə gedəndə döyüş yoldaşları onun haqqında elə gözəl sözlər danışırlar ki, qürurum daha da artır. Niyaməddin toy libası geyinə bilməsə də, Vətən bayrağı bəy köynəyi oldu.

## Coşqun Oruc oğlu Orucov

*( 28.01.2001-25.10.2020)*

## Şərəfli yolda şəhadətə ucaldı



Coşqun orta məktəbdə nümunəvi şagird kimi müəllimlərinin sevimlisinə çevrilmişdi. Buna səbəb onun səmimi və mehriban olması idi. Dərslərini də yaxşı oxuyurdu. Coşqun haqqında həmişə xoş sözlər eşidirdik. Balaca yaşlarından idmanla məşğul olurdu. Ən böyük arzusu idi hərbi



məktəbi oxumaq. Təəssüf ki, bu arzusuna çata bilmədi. Uşaq yaşlarından vətənpərvərlik hissləri özünü büruzə verirdi Coşqunda. Onun Vətənə, bayrağa olan sevgisini ətrafındakılar yaxşı bilirdilər. Hərbçi olmaq marağına səbəb də elə məhz Vətən sevgisindən irəli gəlirdi. Hərbi xidməti başa vurduqdan sonra hərbçi kimi çalışmağa başladı. İşində də nizam-intizamlı idi. Məsuliyyətli olduğundan heç vaxt nigaran qalmazdım. Lakin müharibə başladıqdan sonra bir ana kimi nigarançılıq keçirməyə başladım. Onu da deyim ki, Coşqun imkan olduqca evə zəng edirdi. Gözümü telefondan çəkə bilmirdim. O da bilirdi ki, zəng vurmayanda fikrim yanında qalır. Bunun üçün də hər dəfə zəng edəndə mənə təsəlli verirdi. Axırıncı zəngində  son kəlmələri bu oldu ki, ana, səni öpürəm. Darıxma, hər şey yaxşı olacaq.

Oktyabr ayının 21-i şəhadətə ucalıb. Bizə bu xəbəri oktyabr ayının 24-ü verdilər. Ayın 25-i isə dəfn olundu. Təbii ki, həmin xəbəri alarkən yaşadığım hissləri sözlə ifadə edə bilmirəm. Ağır dərddir bala itkisi. Onun olduğu videoları izləmək də çətindir. Qol götürüb rəqs edirdi. Nə isə... Mən balamla həmişə fəxr etmişəm. Qürur duymuşam ki, Coşqun kimi qəhrəman oğulun anasıyam. Döyüş yoldaşları necə məğrur döyüşçü olduğu haqda söz açırlar. Bu sözlərin hər biri ürəyimə təsəlli olur. Məni yaşamağa ruhlandırır. Mənim oğlum həmişə şərəfli yol arzulayırdı. Şərəfli yolda da şəhadətə ucaldı. Özü də könüllü olaraq bu yolu seçdi. Mənə qəhrəman oğul anası adını bəxş etdi. Geridə qalan şəkilləri mənə xatirədir. Allah bütün şəhidlərimizin məqamını uca etsin. Qazilərimizə şəfa diləyirəm. Onlar




ərazi bütövlüyümüzü təmin etdilər. Bayrağımız daim yüksəklərdə dalğalansın. Vətənimiz sağ olsun! Şəhidlərin ruhları şad olsun!

# Ərlərin yurd yeri – Ərəfsə




Ceyhun MƏMMƏDOV







*Kəndə gedən asfalt yolda bizi Tərlan xanım qarşılayır. Kəndin girişində gəlişimizi gözləyən bu qadın ömrünü uşaqların təhsil almasına həsr edib. Qarşıdakı dağa baxırıq, üzərində parlayan Günəş sanki qonağın gəlişinə sevinən uşağa bənzəyir. Baxdığımızı hiss edərək "Hərami dağı deyirlər ora. Yanındakı dağla onun arasında kənd olub, rəvayəti dillər əzbəridir", – deyir Tərlan xanım. İlahi, bu dağın cazibəsi nədir belə? İnsana bir anda rahatlıq verir, duyğulandırır, sanki zirvəsinə çağırır insanı, bəzən xəyali söhbət etmək keçir içindən: Ərəfsədə igidlərin o dağlarda qaçaqquldurları necə qovmasını soruşmaq istəyirsən...*

***İllərdir, dəyişilməyən ənənə***

Hər tərəfi dağlarla əhatə olunan Ərəfsədə qapının qonaqlı-qaralı olması bu kəndin adətidir. Buranı görməyə gələnlər mütləq bir evin çayını içməlidir, mətbəxindən isə dadmaq qaçınılmazdır. Qonağı olduğumuz ev kəndin yuxarı hissəsində – qayalığa yaxın yerdə yerləşir. Azərbaycan qadınına xas olan adəti – gülərüzlülüyü ilə evində qonaqlayır bizi Tərlan xanım. Bizim üçün əriştə aşı bişirəcəyini deyir, süfrə açılır, kəndin bütün nemətləri önümüzə düzülür. "Ərəfsənin əriştə aşı tam fərqli olur", – deyir Tərlan xanım. Sən demə, burada yeməyin içərisinə vurulan soğana şəkər tozu qatırlar, əlavə ədviyyatlar isə yeməyə ləziz dad verməklə yanaşı, həm də görünüşünü fərqli edir. Yeni kəsilən əriştə bu kəndin mətbəxini daha da zənginləşdirir, onu digər bölgələrdən fərqləndirir...

...Süfrə başında yalnız otururuq, evdə təkik. Təəccüblüdür, ev yiyəsi ara qapını örtür və otağa bir anda səssizlik çökür, birbirimizə baxıb sanki müqəssir kimi hiss edirik özümüzü. "Yeməyinizi rahat çəkib yeyin" səsini eşidirik. Adətdir buranın, bəzən qonağa hörmət əlaməti kimi izah edilir. İşin əsli isə qonağın çəkinmədən yeməyi yeməsidir. İnsanda fikir bulanıqlığı yaradan bu qeyri-adi adət kənd insanının yüksək mədəniyyətindən, düşüncəsindən xəbər verir.

***Tanınmış tayfaların diyarı***

Culfa rayonunun bu kəndi qədim tarixə malikdir. Əsrlər öncə bu diyarda Araqlı, Eminəli, Culuqlu kimi tanınmış tayfalar yaşayıb. Kənd sakinlərinin dediyinə görə, bu tayfaların hamısı türkmənşəli olub. Hələ də kənddə bu tayfaların soyundan gələn insanlar yaşayır. Kəndin adının isə maraqlı tarixi var. Belə ki, 1590-cı ilə aid sənədlərdə kəndin adı "Ərəfsax" kimi işlədilib. Tədqiqatçıların, alimlərin fikrincə, bu, "sak ərlərinin eli, yurdu" mənasını verir, yəni seçilmiş ərlər diyarı. Onu da qeyd edək ki, sak tayfaları e.ə II minillikdə Culfa bölgəsinin yerli sakinlərindən olublar. Eyni zamanda kəndin adı "ərəfsəli" tayfasının adı ilə əlaqədardır. Bu adın həm də ərazisindəki pirlə bağlı olduğu, onun "3 ərəb" sözündən yarandığı fikri də irəli sürülür: "Ərəbsə", sonradan bu "Ərəfsə" sözü ilə əvəzlənib.

***Doqqaz ağzında əyləşən yaşlı insanlar***

İlin bu fəslində Ərəfsədə qayalardan köpüklənib axan çayın səsini eşitmək olmasa da, bir düzüm kəhrəbanın sanki dağların boynuna dolandığını görmək mümkündür. Dağlar bu diyara canlı həyat bəxş edib, göylərdən süzülən qar dənəciklərini özünə hopduraraq yerin ruhunu sorub və özündə birləşdirib, insanını sanki qoynuna alıb. Yaylaqları ağ örpəyə bürünsə də, sanki kəndin hakimliyini kimsəyə ərməğan etməyib, qoparıb insanın köhnə vərdişlərini, ancaq tarixini almayıb, ruhunu sovurub dağların zirvəsinə, ancaq qonaqpərvərliyini, məğrurluğunu almayıb. Balaca dağ çayları, bulaqlar donsa da, yaylaqlarında, dağ yamaclarında heyvanları görmək mümkündür. Bəlkə, yazın gəlişini səbirsizliklə gözləyir bu kənd, bəlkə, isti havalarda səs-küylü olması üçün darıxıb, bəlkə də, coşub-daşan çayından gələn həzin musiqini yenidən dağların zirvəsində eşitmək istəyir. Bu özəlliklər Ərəfsə kəndinin qədimliyini, adətini, simasını qonaqlara ilin bu fəslində aşılayır.

Hər bir kəndin unudulmaz adətidir yol kənarında qonaqları salamlamaq. Doqqazın ağzında yaşlı insanları görmək mümkündür Ərəfsədə. Hər gələndən kefəhval soruşub gedənə "Kəndimizi bəyəndin?" sualını verməkadət halını alıb. Adətən, bunu yaşlı nənə-babalarımızdan görürük, elə Ərəfsədə yaşayan Heydər baba və Fizzə nənə kimi. Kəndi necə sevmələri yanaqlarında yaranan qırmızı qan dənəciklərindən bilinir. Bir-birinə bağlılıqları 55 illik ailənin möhkəmliyindən xəbər verir. Burada doğulub böyüyən Heydər baba deyir ki, hər kəsə uzunömürlü ailə qismət olmur: "Ərəfsə uzunömürlü ailələr diyarıdır. Bu, bəzən kimlər üçünsə sirrdir. Bunun əsas səbəbi mehribanlıq, sadiq olmaq, xanımına hörmət etməkdir". Eyni fikirdə olan Fizzə nənə isə deyir ki, tək qalsalar da, evləri hər zaman qonaqlı-qaralı olur: "Ərəfsəyə gələnlər buranı çox sevir. Bəziləri havasına, bəziləri isə burada bitən bitkilərə görə. Onu deyim ki, buranın yeməkləri çox dadlı və ləziz olur, həm də sağlam qidadır. Bəlkə, kənddə yaşayan yaşlı insanların uzunömürlü olmasının səbəbi buranın təbiəti ilə yanaşı, həm də sağlam qidalardır".

***Torpağına bağlı ərəfsəlilər***

Ömürləri kənddə at belində keçən sakinlər daha çox heyvandarlıqla məşğul olurlar. Tarixən bu kəndin düzənliyinin dağa yaxın olan hissəsində yeraltı mağara şəklində kufullar qazılıb. Primitiv alətlərlə qazılan, düzəldilən bu yerlərdən bir vaxtlar yaşayış məskəni kimi istifadə olunub. Daha sonra isə bu kufullardan heyvanlar sağılan vaxt sərdan kimi istifadə edilib.

Ərəfsə kəndinin yerləşdiyi coğrafi mövqeyə görə, kənd sakinlərinin yaşam tərzi heyvandarlıq və əkinçiliklə bağlıdır. Xüsusilə isti aylarda dağlardan toplanan pencərlər insanların qış azuqələrində mühüm yer tutur. Kəndin adətləri qədimdə burada məskunlaşan tayfaların adları, onların ənənələri ilə bağlıdır. Hər bir evin həyətində təndirin olması, onun qalanması buranın sanki ənənəvi işidir. Bəzən isti aylarda yeməklərin əksəriyyəti təndirəsərdə bişirilir. Ərəfsədə hamının həyətində dağlardan çəkilmiş bulaq suyu var. Göy dağı, İman dərəsi, Çürükdaş yaylağı, Gəvik kufulları, mənbəyini Ərəci dağlarından götürən kənd çayı ilə yanaşı, Qabaqlı, Şadara, Əlincə çayları bu diyara xüsusi gözəllik bəxş edir.









Kəndi gəzdikcə insan dincəldiyi qədər yorulur, sakitləşdiyi qədər coşur. Tanrının bizə bəxş etdiyi bu diyar hələ də tam kəşf edilməyib. Səfərimizi yekunlaşdırıb şəhərə doğru yol almağa tələsmirik. Artıq gəldiyimizdə dağların ağ örpəkdə ağuşuna aldığı Günəş yoxdur, soyuğun təsiri yavaş-yavaş hiss edilir, işığında isindiyimiz Günəşin şəfəqləri dağların arasında itməyə başlayıb: indi bu işıq, sadəcə, dağların zirvəsində olan qar tağlarını al-əlvan rəngə boyayır. Yazın gəlişi buranı bir başqa gözəlliyə qərq edəcək, artıq bizi soyuq Günəş yox, istisində dağ çiçəklərinin açdığı Günəş qarşılayacaq. Hərami dağının zirvəsindəki duman sürünərək yerə dəyməyəcək, bəlkə də, rəvayəti dillər əzbəridir ona görə...





# Bu torpağın hər qarışında qəlbimin bir parçası var



Naxçıvan ədəbi mühitinin yetirməsi, çoxcəhətli və zəngin yaradıcılığı ilə Azərbaycan ədəbiyyatında özünəməxsus yer tutan sənətkarlardan biri də Adil Babayevdir. Adil Babayevin kövrək duyğuları əks etdirən lirik şeirləri, dünya, zaman və insan haqqında fəlsəfi düşüncələrdən yoğrulmuş sonetləri, müxtəlif mövzularda, rəngarəng biçimlərdə qələmə aldığı poemaları, dramları, hekayələri, yaşadığımız günlərin ovqatını həssas qələmlə canlandıran publisistikası, ədəbi-tənqidi məqalələri, dünya klassiklərindən tərcümələri, Azərbaycan teatrşünaslığı sahəsindəki əvəzolunmaz xidmətləri bu böyük istedad sahibinin zəngin, bənzərsiz yaradıcılıq fəaliyyətini göz önündə canlandırır.

Adil Qafar oğlu Babayev 1925-ci il yanvar ayının 27-də Naxçıvan şəhərində anadan olub. 1931-ci ildə Naxçıvan şəhərindəki 1 nömrəli məktəbdə oxumuş, 1938-ci ildə anası Xeyransa xanımla Tiflis şəhərinə köçmək məcburiyyətində qalmışdır. Tiflisdə Mirzə Fətəli Axundov adına Azərbaycandilli orta məktəbdə təhsilini davam etdirmişdir. İlk şeirlərini də orta məktəbdə oxuyan zaman yazmışdır. Şair o illəri belə xatırlayır: “Bir şair kimi ömrüm ilk şeirim dünyaya gələn gündən başlayıb: 1939-cu ilin mayında Tiflisdə çıxan “Yeni qüvvə” jurnalında “Qanadlanmış şahin” adlı şeirim çap ediləndə. Həmin şeirin işıq üzü görməsi məni həm sevindirdi, həm də illər keçdikcə güclənən qayğı, düşüncə ümmanına atdı. Bu qayğı oxucuların ən müqəddəs duyğularını, ən təmiz arzularını qələmə ala bilmək qayğısı idi”.

Adil Babayev 1943-cü ildə Tiflisdə A.S.Puşkin adına İkiillik Müəllimlər İnstitutunun Dil və ədəbiyyat fakültəsinə daxil olmuş, eyni zamanda “Sovet Gürcüstanı” qəzeti redaksiyasında ədəbiyyat şöbəsinə rəhbərlik etmişdir

1945-ci ildə Bakı şəhərinə köçən Adil Babayev “Kommunist” qəzetində ədəbi işçi, tərcüməçi işləmişdir. Həmin ilin noyabrında Adil Babayevin “Kommunist” qəzetində “Çinar” adlı şeiri çap olunmuşdur:

*Daddımsa aləmin hər nemətini,*
*Dilbər guşələrdə ötdüsə ömrüm,*
*Dünyanın ən böyük səadətini,*
*Bu boylu çinarın altında gördüm.*

Böyük Azərbaycan şairi Səməd Vurğun şeiri çox bəyənir və ona “Mənim arzum” adlı şeir həsr edir:

*Şair! Nə incədir, rübabın sənin!*
*Uçurdu ruhumu çaldığın bu saz!*
*Vətən torpağında bitən gülşənin*
*Yarpağı saralıb, çiçəyi solmaz.*

Əlbəttə ki, böyük bir sənətkarın gənc qələm sahibinə şeir həsr etməsi ədəbiyyatşünas Əli Səmədlinin təbirincə desək, “Ali məktəb diplomuna bərabər idi”. Adil Babayev Səməd Vurğunun poetik xeyir-duasından sonra daha ilhamla çalışmış və 1946-cı ildə Azərbaycan Yazıçılar İttifaqının üzvü seçilmişdir. O, yaradıcılığının ilk dövrlərindən mətbuatla yaxından bağlı olmuşdur. Belə ki, “Şərq qapısı” (1946) qəzetində əvvəlcə korrektor, sonra isə poeziya şöbəsinin müdiri işləmişdir. Xalq yazıçısı Əli Vəliyev “Şərq qapısı” qəzetinin 50 illiyi münasibətilə buraxılan 4 yanvar 1972-ci il tarixli 11-ci sayında “Danışır, “Şərq qapısı”nın redaktorları” rubrikası ilə verilən “Əziz qələm dostlarıma” məqaləsində istedadlı qələm sahibləri kimi Əyyub Şəkilinin, İslam Səfərlinin, Nağı Nağıyevin, Hüseyn İbrahimovun, Müzəffər Nəsirlinin və bunlarla bərabər Adil Babayevin də əməyinin danılmaz olduğunu vurğulamışdır.

1949-1952-ci illərdə “İnqilab və mədəniyyət” (indiki “Azərbaycan”) jurnalında poeziya şöbəsinin müdiri işləmiş, rus və dünya ədəbiyyatından etdiyi tərcümələrini, yeni şeirlərini də bu jurnalda çap etdirmişdir.

Adil Babayev Azərbaycan Dövlət Nəşriyyatında bədii ədəbiyyat şöbəsinin redaktoru, “Ədəbiyyat və incəsənət” qəzetində tənqid şöbəsinin müdiri, məsul katib, baş redaktorun müavini işləmişdir. Onun bədii yaradıcılığında “Ədəbiyyat və incəsənət” qəzetinin böyük rolu olmuşdur.

25 kitab müəllifi olan Adil Babayevin iki kitabı, həmçinin bir sıra şeir və nəsr əsərləri rus dilinə tərcümə olunmuşdur. Təəssüf ki, geniş yaradıcılıq diapazonuna malik olan Adil Babayevin ədəbi irsi haqqında əhatəli məlumat verilməmiş, zəhməti vaxtında qiymətləndirilməmişdir. Şair Nəriman Həsənzadənin sözləri ilə desək, “Adil şair kimi doğulsa da, onun şair taleyi doğulmamışdır”.

Adil Babayev yaradıcılığının ayrı-ayrı dövrlərində bədii ədəbiyyatın müxtəlif növlərinə müraciət etsə də, daha çox istedadlı şair kimi tanınıb şöhrətlənmişdir. Şairin lirikasını bir küll halında nəzərdən keçirdikdə görürük ki, Vətən torpağının gözəlliyi, dünyada baş verən fərəhli və nisgilli hadisələr, fəsillərin özünəməxsus çalarları, insanlar, onların taleyi, mənəvi aləmi şairin qəlbini ehtizaza gətirmişdir. Şair “Naxçıvan”, “Kaş bir də”, “Araz sahilində”, “Azərbaycan”, “Tarımın sarı simi” və sair şeirlərində Vətənin gözəl, təkrarsız mənzərələrini özünəməxsus bədii boyalarla, rəssam həssaslığı ilə gözlərimizin qarşısında canlandırır. Azərbaycanın, doğulduğu Naxçıvan torpağının sanki sözlə rəsmini çəkir, xeyli coğrafi adlar sadalayır:

*Mən – Batabat yaylağında bitən güləm,*
*Mən – Haçadağdan əsən səhər yeliyəm.*
*Gəmiqayanın bir parçası,*
*Əjnövürün qarıyam.*
*Mən – Naxçıvanın Bakıya, Laçına,*
*Təbrizə gedən yoluyam.*

Şair Naxçıvana məxsus səciyyəvi poetik detallarla oxucusunun diqqətini cəlb edir. Bu yerləri görməyən, gəzməyən oxucuda belə bu torpağa qarşı məhəbbət oyadır. Bu kiçik şeirdə qədim Naxçıvanın coğrafiyası, füsunkar təbiəti, zəngin sərvətləri öz poetik ifadəsini tapmışdır.

Adil Babayevin lirikasının mühüm hissəsini onun sonetləri təşkil edir. Azərbaycan poeziyasında sonet janrına sistemli şəkildə yanaşan, onun çoxsaylı nümunələrini yaradan, bu janra ədəbiyyatımızda tam vətəndaşlıq hüququ qazandıran Adil Babayev olmuşdur. 1968-ci ildən başlayaraq şair mütəmadi olaraq bu janrda qələmini sınamış və elə ilk sonetlərində də kamil sonetçinin sənətkarlıq məharəti özünü göstərmişdir:

*İstərəm, bu dünyadan köçümü sürən zaman,*
*Heç olmasa, bir nəfər salsın məni yadına,*
*Etiraf eləsin ki, heç olmasa bircə an,*
*Ümid nuru salıbdır şeirim həyatına.*

Bu sonetində şair ölüm və yaşamağın dialektik mahiyyətini açır, fəlsəfi cəhətdən həyatın mənasını səciyyələndirir. Adil Babayevin nəzərində “Ölüm müdhiş deyil, yaşamaq çətindir”, gərək elə yaşayasan ki, öləndən sonra da ölməz nəğmələr kimi əbədiyyətə qovuşasan. Bu xoşbəxtlik isə hamıya nəsib olmur. Bunun üçün xalqa, Vətənə, insanlara təmənnasız xidmət etmək lazımdır. Onun fikrincə, şair o vaxt xoşbəxt ola bilər ki, o, öləndən sonra da xatırlansın, əsərləri oxuna.

Doğma yurduna qırılmaz tellərlə bağlı olan şair Vətəni qarış-qarış gəzib, ürəyinin məhəbbətini, qəlbinin hərarətini “ana yurdun gül nəfəsli torpağı”na qatmışdır. O, Vətəndən uzaqda olanda da xəyalən ana torpaqdan ayrılmamış və bunu bədii dillə belə ifadə etmişdir:

*Gəzib dolansam da bütün dünyanı,*
*Bir an unutmaram Azərbaycanı.*
*Qoy Vətən sevgisi şeirimin canı,*
*Kağızım ellərin ürəyi olsun.*

Adil Babayevin elə bir şeiri yoxdur ki, orada Azərbaycan torpağının isti nəfəsi yüksək poeziya dili ilə, bədii şəkildə əks olunmasın. Şair nahaq yerə deməyib ki, məni axtaranda bu torpaqda axtarın, çünki bu torpağın hər qarışında, meşəsində, dağında, daşında qəlbimin bir parçası var. Bütün dünyanı gəzsə də, qəlbi həmişə Vətən eşqi ilə, torpaq həsrəti ilə döyünən Adil Babayevi qədirbilən Azərbaycan xalqı heç vaxt unutmaz.

**Aypara BEHBUDOVA**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

# Tarixə güzgü olan şəkillər...

## *Yarım əsrdən çox yaşı olan fotostudiyadan reportaj*



*Naxçıvan şəhərində yarım əsrdən çox yaşı olan fotostudiya bu gün də öz fəaliyyətini davam etdirir. Nənə-babalarımızdan eşitmişik ki, uzun illər Naxçıvanda fotostudiya deyiləndə ağıla ilk olaraq “Ulduz” fotostudiyası gəlir. Xatirələrdən belə aydın olur ki, elə bu gün muxtar respublikadakı ən yaşlı fotoqraf da bu fotostudiyada çalışan 79 yaşlı* ***Əhməd Seyidov****dur. Ömrünün 57 ilini bu sahəyə həsr edən ustad fotoqraf hazırda “Ulduz” fotostudiyasında fəaliyyətini davam etdirir. Əhməd Seyidov illərdir, Naxçıvanımızın hər guşəsini qarış-qarış gəzərək onu cəlb edən görüntüləri fotolentin yaddaşına həkk edir.*



Elə biz də yaşı yarım əsri ötmüş bu sənət ocağından bəhs etmək üçün yolumuzu şəhərimizin mərkəzində yerləşən adıçəkilən fotostudiyadan saldıq.

İçəri daxil olarkən insan sanki bir anlıq keçmişə qayıdır, fotoaparatların ilkin halını xatırlayır. Əhməd Seyidov deyir ki, bu sahəyə olan marağı uşaqlıqdan var imiş. Bu gün isə o, ömrünün səkkizinci onilliyini yaşayır: “Şəklin gözəl alınması üçün, sadəcə, fotoaparat kifayət etmir, fotoqrafın peşəkarlığı da lazımdır. Fotoqrafın sənətinə olan sevgisi və fotoaparatın dilini bilməsi birlikdə bir harmoniya yaradaraq mükəmməl fotoşəkillər ərsəyə gətirir. Eyni zamanda uzun illər insanların xatirələrində yaşayacaq şəkillər üçün fotolara emosiyaları da qatmaq lazımdır ki, keçmişə qayıdıb şəkillərə baxdığımız zaman eyni hissləri yenidən yaşayaq. Peşəkar fotoqraf olmaq üçünsə daim öz üzərində işləməyi bacarmalısan. Yeniliklərə və insanların tələbatlarına cavab verməlisən”. Müsahibimiz söhbətinə davam edir: “Bu çətin və məsuliyyətli işin öhdəsindən gələrkən ailəmdən böyük dəstək aldım və bu gün yarım əsrdən çox yaşı olan bu fotostudiyanı yaşada bildim.

Müasir dövrdə mobil telefonlar və fərdi fotoaparatların mövcudluğu insanların şəkil çəkmə bacarıqlarını inkişaf etdirib. Bu səbəbdən də fotostudiyalara tələbat əvvəlki kimi çoxluq təşkil etmir. Lakin əvvəllər fotostudiyalara insanlar daha çox müraciət edirdi. Naxçıvan sakinlərinin ailə albomlarında “Ulduz” fotostudiyasının loqosu ilə fotolar hələ də mövcuddur. Həmin şəkillər ağ-qara olsa da, daha canlı və maraqlıdır”.

Əhməd Seyidov deyir ki, o zamanlar müasir avadanlıqlar olmasa da, biz həvəslə çalışırdıq. Hətta bir fotoşəklin ərsəyə gəlməsi üçün günlərlə vaxt sərf edirdik. Söhbət zamanı onu da öyrənirik ki, müsahibimiz sevdiyi peşəsini oğluna da öyrədib.

Jurnalist kimi özüm də bir foto həvəskarı olaraq ömrünü ağ-qara şəkillər dünyasında əridən Əhməd Seyidova, bütövlükdə, Seyidovlar ailəsinə uğurlar diləyir və “Ulduz”dan ayrılırıq...

✍ **Bülbül QULİYEVA**

# Yanğın təhlükəsizliyimizi necə təmin edək?

## Müsahibimiz polkovnik-leytenant Şıxəli Əliyevdir

*Son illərdə dünyada yanğın hadisələrinin artdığı müşahidə olunur. Xüsusilə qış aylarında istilik sistemlərinin intensiv istifadəsi ilə əlaqədar yanğınların başvermə halları daha da çoxalmaqdadır. Bu məsələyə diqqət yetirmək məqsədilə "Şərq qapısı" qəzeti olaraq Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti İdarəsinin Dövlət Yanğın Nəzarət İşinin Təşkili Şöbəsinin rəisi, polkovnik-leytenant Şıxəli Əliyevlə həmsöhbət olduq:*





***– Qış mövsümündə yanğın hadisələrinin artmasının səbəbləri nə ilə əlaqədardır?***

– Qış mövsümündə istilik sistemlərinə tələbatın artması nəticəsində elektrik və qaz təsərrüfatından daha çox istifadə olunur ki, bu da yanğınların baş vermə ehtimalını yüksəldir. Təəssüf ki, bəzi hallarda təhlükəsizlik qaydalarına əməl edilmədiyindən yanğınlar baş verir. Bundan əlavə, məsuliyyətsizlik hallarına görə belə xoşagəlməz hadisələrin baş verməsi də istisna deyil. Azyaşlı uşaqların evdə təkbaşına buraxılması zamanı yanğın hadisələrinin baş verməsi halları da xüsusi qeyd olunmalıdır. Məqsədimiz yanğınların sayını minimuma endirmək və insan itkilərinin qarşısını almaqdır.

***– Yanğın təhlükəsizliyi üçün hansı qabaqlayıcı tədbirlər görülür?***

– Hər il qış mövsümünün başlanması ərəfəsində Dövlət Yanğın Nəzarəti İdarəsi tərəfindən nəzarət və təbliğat tədbirləri görülür. Əhali arasında maarifləndirmə işləri aparılır, yaşayış binalarına və fərdi evlərə baxış keçirilir. Biz insanlara odla ehtiyatlı davranmağı, elektrik və qaz cihazlarının düzgün quraşdırılması və istismar edilməsini izah edirik. Həmçinin yüksək mərtəbəli binaların yanğın təhlükəsizliyini təmin etmək üçün su nasoslarının, tüstü xaricetmə sistemlərinin və digər texniki qurğuların işlək vəziyyətdə saxlanması da vacibdir.

***– İnsanlar arasında təhlükəsizlik qaydalarına əməl etməmək hallarına tez-tez rast gəlinir. Bu məsələdə çətinliklər nədən ibarətdir?***

– Həyata keçirilən çoxsaylı maarifləndirmə tədbirlərinə baxmayaraq, insanlar yenə də eyni səhvləri təkrar edirlər. Ən çox rast gəlinən səbəblər arasında odla ehtiyatsız davranış, qaz və elektrik cihazlarının nasaz halda istifadəsi, uşaqların odla oynaması və çardaqlarda təhlükəli maddələrin saxlanması yer alır. Buna görə də təbliğat işləri davamlı olmalı və vətəndaşlar təhlükəsizlik qaydalarına əməl etməyə diqqət yetirməlidirlər.

***– Naxçıvan şəhərində bəzi binalarda yanğın çıxışlarının olmaması ilə bağlı nə kimi tədbirlər görülür?***

– Naxçıvan şəhərindəki əvvəlki dövrə aid tikililərdə yanğın çıxışlarına dair ciddi nəzarət tədbirləri tətbiq olunmurdu. Lakin hazırda tikilən yeni binalarda yanğın çıxışlarının olmasına xüsusi diqqət yetirilir. Bu böyük risk qrupuna aid binalar tikildiyi andan etibarən ildə iki dəfə ekspedisiyadan keçirilir. Köhnə binalarda isə yanğın çıxışlarının olmaması ilə bağlı vəziyyət mövcuddur, bu məsələyə də biganə yanaşılmır. Hazırda havalandırma boruları, sorucu avadanlıqlar qurulub və bu sistemlər daim nəzarətdə saxlanılır. Hətta bu qurğuları adi kafe və restoranlarda da görmək mümkündür.

***– Yekun olaraq əhalinin yanğından mühafizəsi ilə bağlı hansı tövsiyələriniz var?***

– Yanğınlardan qorunmaq üçün hər bir vətəndaş təhlükəsizlik qaydalarına ciddi əməl etməlidir. Elektrik və qaz cihazlarından istifadə edərkən onların sazlığını mütəmadi olaraq yoxlanılmalı, nasaz avadanlıqlar dərhal təmir etdirilməlidir. Uşaqları nəzarətsiz buraxmamaq və onlara odla oynamağın təhlükəli olduğunu izah etmək lazımdır. Yanğına səbəb ola biləcək maddələr yaşayış yerlərindən uzaqda saxlanılmalıdır. Unutmayaq ki, hər birimizin məsuliyyəti təhlükəsizliyin təmin edilməsində mühüm rol oynayır.

**Rafiq TƏHMƏZ**

## Naxçıvan boksçusu ölkə birinciliyinin mükafatçısı olub

Bakı şəhərində gənc boksçuların Azərbaycan birinciliyi keçirilib. 6 gün davam edən birincilikdə ölkənin müxtəlif şəhər və rayonlarının klublarını, həmçinin idman cəmiyyətlərini təmsil edən 64 komandanın 304 (278 kişi, 26 qadın) idmançısı qüvvəsini sınayıb.

Naxçıvan Muxtar Respublikasından 2 məşqçi, 1 hakim və 9 idmançı yarışda iştirak edib. Gözləntilərin yüksək olmasına baxmayaraq, idmançılarımızdan yalnız biri mükafatçılar sırasına düşə bilib. Komandamızın heyətində 71 kiloqram çəki dərəcəsində çıxış edən Sarvan Abdullayev finala qədər maneəsiz irəliləsə də, həlledici görüşdə qələbə qazana bilməyib. Nəticədə, təmsilçimiz yarışı gümüş medal ilə tamamlayıb.



## İdmançımız "Sabahın ulduzları"nda fərqləndi



Abşeron Olimpiya İdman Kompleksində yunan-Roma və sərbəst güləş üzrə yeniyetmələr arasında "Sabahın ulduzları" turniri keçirilib. Paytaxt və region idmançılarının qatıldığı, iki gün davam edən yarışda Naxçıvan Muxtar Respublikasından 1 məşqçi, 1 hakim və 5 idmançı iştirak edib.

Təmsilçilərimizdən Hüseyn Rəcəbli 65 kiloqram çəki dərəcəsində üçüncü yerə sahib çıxıb. Bundan əlavə, Nihad Muradov bir neçə görüşdə hakimlik edib.




## Karateçilərimiz "Arpaçay Open" turnirindən medallarla qayıdıblar

Bakı şəhərində 20 Yanvar faciəsinin 35-ci ildönümünə həsr olunmuş 10-cu "Arpaçay Open" karate turniri keçirilib. İki gün davam edən yarışda paytaxt Bakı, Sumqayıt və regionlar daxil olmaqla, 10-a yaxın xarici ölkədən, (Türkiyə, İran, Çexiya, Gürcüstan, Qazaxıstan, Küveyt, Özbəkistan, Rusiya) ümumilikdə, 800-ə yaxın idmançı kata, kumite və komanda-kumite yarışlarında mübarizə aparıblar.

Turnirdə muxtar respublikadan 1 məşqçi və 7 idmançı iştirak edib. Təmsilçilərimizdən 5-i mükafatçılar sırasına düşüb. Fatimə Bağırzadə (36- kiloqram) 10 yaşlılar arasında kumite üzrə qızıl medala sahib çıxıb. Eyni növ və yaş kateqoriyasında çıxış edən Xəyyam Məmmədli (42+ kq) və Damla Tağızadə (32- kq) bürünc medal qazanıblar. Gülər Hüseynova isə (61+ kq) 14-15 yaşlıların arasında bürünc medal əldə edib. Yaşı 16-dan yuxarı olan idmançıların kata yarışında çıxış edən Ulduz Hümbətzadənin qazandığı medalın da əyarı bürünc olub. Beləliklə, turnirdə çıxış edən Naxçıvan karateçiləri 1 qızıl və 4 bürünc medal qazanıblar.

Qeyd edək ki, 65 idman klubunun iştirak etdiyi turnirdə ümumi nəticələrə görə, "Qara qaplan" klubu birinci, "Qara brilyant" klubu ikinci, Qazaxıstanın Cambul vilayətinin idman klubu isə üçüncü olub.

## Naxçıvan Sağlamlıq Mərkəzinə yeni avadanlıqlar alınıb

Naxçıvan Sağlamlıq Mərkəzinin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində mühüm addımlar atılır. Müasir standartlara cavab verən yeni avadanlıqlar və tibbi ləvazimatlar mərkəzin fəaliyyətinə əlavə effektivlik qazandıracaq. Bu yenilik tibb işçilərinin xəstələrə yüksəkkeyfiyyətli xidmət göstərməsinə imkan yaradacaq.

Yeni alınan avadanlıqlar arasında reanimasiya xəstə çarpayısı, xəstəyuma xərəyi və xəstə daşıyıcı kran xəstələrin təhlükəsiz və rahat daşınmasını təmin etmək üçün əlavə olunub. Qeyd edək ki, bu avadanlıqlar səhiyyə xidmətinin keyfiyyətini daha da artırmağa yönəlib və reanimasiya sahəsində tibbi personalın işini daha da asanlaşdıracaq.



### İtmişdir

Şərur rayonu, Yuxarı Daşarx kənd sakini Cəlalov Kamal Camal oğlunun adına olan JN-131 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Aşağı Yaycı kəndində yaşamış Mahmudov Hüseyn Əli oğlunun adına verilmiş JN-158$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonu, Xok kəndində yaşamış Hüseynov Qürbət Yavər oğlunun adına olan JN-955$^{B}$ nömrəli, 10800038 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Hüseynova Ceyran Vüqar qızının adına olan Yeni Azərbaycan Partiyası vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Cəlilkənddə yaşamış Mustafayeva Ceyran İbo qızının adına olan JN-397$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Qarxun kənd sakini Vəliyev Yunis Mahmud oğlunun adına olan JN-185$^{A}$, JN-185$^{B}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə"lər itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Didivar kənd sakini Cabbarov Vaqif Əbdüləli oğlunun adına olan JN-195 nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

### Allah rəhmət eləsin

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin kollektivi bölmənin sabiq əməkdaşı, Prezident təqaüdçüsü, kimya elmləri doktoru

**BAYRAM RZAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

ŞƏRQ QAPISI

Baş redaktor müavini: MƏMMƏD BABAYEV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00

Tiraj: 1000. Sifariş № 24

Nömrəyə məsul: Əli Cabbarov, Turan Məmmədli, Ceyhun Məmmədov
Dizayner: Tacirə Vəliyeva

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.